www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23 may 2017-ci il Çərşənbə axşamı № 109 (6723) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda evi od bürüdü; iki qardaş yanaraq öldü

yazısı səh.2-də

**Gündəm**

### Prezident Ərdoğan niyə AK Partiyaya qayıtdı -fövqəladə qurultayın dərin hədəfləri...



AK Partiyanın tarixi qurultayına qatılan Rauf Arifoğlu musavat.com-un oxucuları üçün gözlə görünməyən, pərdəarxası məqamlardan danışdı

yazısı səh.9-da

### İslam Həmrəyliyi Oyunları bitdi, qazandıqlarımız...

yazısı səh.13-də

### İŞİD təhlükəsi Azərbaycan və dünya üzərindən sovuşdumu...

yazısı səh.7-də

### Respublika Günü müxalifət eyni məkanda toplaşacaq

yazısı səh.6-da

### Avropaya vizasız gediş nə zaman reallaşacaq?

yazısı səh.7-də

### Araz Əlizadə Rəsulzadəni aşağıladı, sərt cavablar aldı

yazısı səh. 3 və 4-də

### Rəsmi Bakının balans siyasətinin daha bir sirri

yazısı səh.10-da

### "Avtoş" məmur oğlundan daha bir xoşagəlməz əməl

yazısı səh.14-də

### Qazaxıstan Beynəlxalq Bankdakı vəsaitlərini xilas etməyə çalışır

yazısı səh.10-da

### İş adamına arvadından şok ittihamlar - "Məni otağa salıb..."

yazısı səh.15-də

### Qarabağ hər an alova bürünə bilər

yazısı səh.11-də

## Az.TV anti-Azərbaycan qüvvələrin arxasındakı adamı göstərdi...

# HAKİMİYYƏT RUSİYAYA QARŞI HƏRƏKƏTƏ KEÇDİ - SƏRT CAVAB

İqtidar televiziyası ÜAK-ın ləğvi ilə bağlı qərarı qərəzli saydı və ölkəmiz əleyhinə çalışan qüvvələri ittiham etdi; Rusiya xarici işlər naziri Sergey Lavrovun erməni ilə öpüşməsinin efirə verilməsi nəyə işarədir?




yazısı səh.5-də

## Azərbaycanla bağlı gizli plan - müharibə başlasa...

Qarabağ ətrafında gərginliyin artması ən çox kimə əl verir, Rusiyanın konfliktə dair "Yol xəritəsi"ndə nə var? **Ekspertdən ilginc iddia:** "Müharibə Rusiya hərbi bazasının Azərbaycana qayıtması ilə bitə bilər..."

yazısı səh.8-də



### ABŞ-ın xüsusi prokuroru Ziya Məmmədovu araşdıra bilər

yazısı səh.3-də



### İqbal Ağazadədən "agent" ittihamına sərt cavab

yazısı səh.6-da



### Eldar Mahmudov "dirilə" bilərmi...

yazısı səh.12-də



# Prezident İlham Əliyev BƏƏ nümayəndə heyətini qəbul etdi

**Azərbaycan prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Şeyx Abdullah bin Zayed Al Nahyanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

APA-nın məlumatına görə, Şeyx Abdullah bin Zayed Al Nahyanla keçirdiyi son görüşü məmnunluqla xatırlayan prezident İlham Əliyev bildirib ki, ötən müddət ərzində ölkələrimiz dostluq, qardaşlıq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi istiqamətində böyük inkişafa nail olub.

Azərbaycan ilə BƏƏ arasında əlaqələrin yüksək səviyyədə və dinamik inkişafda olduğunu deyən dövlət başçısı siyasi, iqtisadi, ticarət və digər sahələrdə əməkdaşlığın çox yaxşı istiqamətdə inkişaf etdiyini vurğulayıb. Abu-Dabinin vəliəhdi, BƏƏ-nin Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd Bin Zayed Əl Nəhyanla dünənki görüşünə toxunan prezident İlham Əliyev bu görüşü ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsinə olan böyük qarşılıqlı marağın göstəricisi kimi dəyərləndirib və BƏƏ-nin xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Şeyx Abdullah bin Zayed Al Nahyanın ölkəmizə səfərinin də bu baxımdan əhəmiyyətli addım olduğunu deyib.

İkitərəfli əlaqələrimizin inkişafından qürur duyduğunu deyən qonaq isə bu əlaqələrin genişləndirilməsində prezident İlham Əliyevin liderliyinin əhəmiyyətli rolunu qeyd edib.

Görüşdə son vaxtlar BƏƏ-dən Azərbaycana gələn turistlərin sayının xeyli artdığı vurğulanıb, bunun ölkəmizdə olan əmin-amanlıq və qonaqpərvərliyin göstəricisi olduğu bildirilib.

Söhbət zamanı ölkələrimiz arasında nəqliyyat, ixrac-idxal, ticarət, turizm, müxtəlif infrastruktur layihələrinin həyata keçirilməsi və digər sahələrdə əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb.

# Dövlət şirkətlərinin büdcəyə 1,4 mlrd. manat vergi borcu var

**Azərbaycanın dövlət şirkətləri 2016-cı ildə dövlət büdcəsinə vergi borclarını xeyli dərəcədə azaldıb. APA "Interfax" agentliyinə istinadən xəbər verir ki, bu barədə "Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinə və dövlət büdcəsinin icrasına dair illik hesabata Hesablama Palatasının rəyində qeyd edilib.**

2016-cı ildə dövlət büdcəsinə vergi borcları 979 mln. 314,3 min manat və ya 40,6% azalaraq 1 mlrd. 434 mln. 449,4 min manata çatıb. 1 yanvar 2017-ci il tarixinə büdcəyə ödəniləcək əsas vergi borcunun məbləği 860 mln. 589,8 min manat təşkil edir, 193 mln. 47,2 min manat maliyyə sanksiyalarının, 380 mln. 812,4 min manat cərimələrin payına düşür.

Hesablama Palatasının məlumatına əsasən, vergi borclarının 97,6%-i və ya 1 mlrd. 400 mln. manat qeyri-neft sektorunun borclarının payına düşür. Bundan əlavə, ötən il neft sektorunun borclarının həcmi 5,7% artıb, qeyri-neft sektorunun borclarının həcmi isə 41,2% azalıb.

Dövlət sektoru müəssisələrinin borcu 365 mln. 419,5 min manat və ya bütün borcların 25,5%-ni, özəl müəssisələrin borcu 1 mlrd. 690 mln. 29,9 min manat və ya 74,5% təşkil edir. 2016-cı ildə dövlət müəssisələrinin vergi borcları 68,8%, özəl müəssisələrin vergi borcları 13,9% azalıb.

Ötən il dövlət mülkiyyətində olan vergi ödəyiciləri üzrə əhəmiyyətli azalma "Azərenerji" ASC-nin borclarının ümumilikdə 796 mln. 289,7 min manat azalaraq 3 mln. 506,2 min manata enməsi, o cümlədən verginin əsas məbləği üzrə borcun 390 mln. 295,5 min manat azalması ilə əlaqədardır.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# "Avroparlamentdə Azərbaycanla Ermənistan arasında sülh platformasının həyata keçirilməsinin tərəfdarıyıq" - Səməd Seyidov

**"Ermənistan və Azərbaycan arasında sülh platformasının Avropa Parlamentində və başqa beynəlxalq təşkilatlarda həyata keçirilməsinin tərəfdarıyıq. Bu mesajı həm Avropa Parlamentində, həm təşkilatın buradakı nümayəndə heyəti ilə görüşlərdə, həm də başqa beynəlxalq təşkilatlarda səsləndiririk".**

APA-nın məlumatına görə, bunu Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Avropa Parlamentinin nümayəndə heyəti ilə birgə keçirilən brifinqdə bildirib.

O qeyd edib ki, ancaq bu münasibətlər qarşılıqlı olmalıdır: "Azərbaycan danışıqlara hazırdır. Qarşı tərəfin razılığının olması isə sual altındadır.



Əminəm ki, açıq, sərbəst şəkildə təşkil olunmuş komitələr arasında münasibətlər həm Azərbaycan parlamenti ilə Avropa Parlamentinin əlaqələrini inkişaf etdirəcək, həm də Azərbaycanın ən ağrılı problemi Dağlıq Qarabağ məsələsi ilə bağlı həqiqətlərin Avropa ictimaiyyətinə çatdırılmasında böyük rol oynayacaq".



# Keçmiş arvadını öldürməkdə təqsirləndirilən şəxs Avropa Məhkəməsinə şikayət etdi

**Hazırda Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə məhkəməsi keçirilən sabiq polis əməkdaşı Samir Əliyevin yaxınları Avropa Məhkəməsinə müraciət yollayıblar. İttihama görə, S.Əliyev keçmiş həyat yoldaşı Natəvan Əliyevanı qətlə yetirdikdən sonra yandırıb. N.Əliyevanın yanmış meyiti 2015-ci il iyulun 6-da Bakı-Quba yolunun 55-ci kilometrliyində tapılıb. N.Əliyeva Bakıda fəaliyyət göstərən xəstəxanaların birində həkim işləyib. S.Əliyev isə Şabran Rayon Polis Şöbəsinin əməkdaşı, polis mayoru olub.**

S.Əliyevin hazırkı həyat yoldaşı Zəminə Əliyeva bildirib ki, Avropa Məhkəməsində yoldaşının qanunsuz həbsdə saxlanılmasını mübahisələndirirlər: "Samirin həbsinin 13-cü ayı tamamlandı. Mövcud qanunlara görə həmin ay onu ya azad etməli, ya da işi məhkəməyə göndərməli idilər. Amma onu nə azad etdilər, nə də işi məhkəməyə göndərdilər. Samir faktiki olaraq 19 ay girov saxlanılıb. Qanuna görə 13-cü ayın tamamında təcridxana rəisi onu açıb buraxmalı idi. Müraciətlərimizə baxmayaraq 3 saylı İstintaq Təcridxanasının rəisi, sonradan Ədliyyə Nazirliyi heç bir reaksiya vermədilər, hərəkətsizlik etdilər. Buna görə də biz azadlıq hüququnun pozulmasının tanınması üçün Avropa Məhkəməsinə müraciət etmişik".

**Z.Əliyeva bildirib ki, S.Əliyev ittihamları qəbul etmir, saxta və qondarma olduğunu bildirir.**

❑ E.MƏMMƏDƏLİYEV



# Bakıda iki qardaş mənzildə yanıb öldü

**Bakıda yaşayış binasında yanğın olub. APA-nın məlumatına görə, hadisə paytaxtın Binəqədi rayonu, Ziya Bünyadov prospekti 11 ünvanında qeydə alınıb. Həmin ünvanda yerləşən beşmərtəbəli yaşayış binasının 4-cü mərtəbəsindəki mənzildə meydana gələn yanğının söndürülməsinə Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürənləri cəlb edilib.**

"Yanğın barədə Dövlət Yanğından Mühafizə Xidmətinə məlumat saat 16:53 radələrində daxil olub. İlkin yanğın avtomobili 6 dəqiqə sonra hadisə yerinə çatıb və binanın 4-cü mərtəbəsində mənzilin alov içərisində olduğu haqqında məlumat verib".

Bunu FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin rəis müavini, polkovnik Rza Xudiyev deyib.

Onun sözlərinə görə, dərhal hadisə yerinə texnika və şəxsi heyət göndərilib, təxminən 30 dəqiqə sonra yanğın məhdudlaşdırılıb, 15 dəqiqə sonra tam söndürülüb: "Yanğının sondürülməsi zamanı mərtəbələrdən 2 azyaşlı uşaq xilas edilib. Kəşfiyyat zamanı mənzildə iki qardaş - 52 yaşlı Çeykullayev Aleksandr Petroviç və 54 yaşlı Çeykullayev Anatoli Petroviçin meyitləri aşkar olunub. Qonşuların sözlərinə görə, qardaşlardan biri xəstə, digəri isə içkiyə meylli olub, tüfeyli həyat keçirib".

FHN rəsmisi qeyd edib ki, yanğın nəticəsində 1 otaqlı, ümumi sahəsi 30 kvadrat metr olan mənzilin yanar konstruksiyaları yanıb: "Qonşuların dediyinə görə, əvvəlcə mənzildə partlayış baş verib, mənzilin pəncərəsi qırılıb, partlayışdan sonra yanğın baş verib. Tədqiqatçılar araşdırma aparır, əlavə məlumat veriləcək. Hadisənin hansı səbəbdən baş verməsi dəqiq müəyyənləşəcək".

# Senator Makkeyn efirdə Lavrov və Putini təhqir etdi

**Amerikalı senator Con Makkeyn qonağı olduğu "Fox News Sunday" proqramında Rusiya prezidenti Vladimir Putin və Sergey Lavrovu təhqir edib. Avropa.info xəbər verir ki, Makkeyn Tramp-Lavrov görüşü barəsində deyib ki, Rusiya xarici işlər nazirinin Oval kabinetdə yeri yoxdur.**

Senator Lavrovu "bandit qatil" Putinin "marioneti və propaqandaçısı" adlandırıb. Makkeyn Rusiya prezidentini yüksək dəqiqlikdə silahla Hələb xəstəxanalarına zərbə endirməkdə ittiham edib.

Xatırladaq ki, 10 mayda Ağ Evdə Tramp, Sergey Lavrov və Rusiyanın ABŞ səfiri Sergey Kislyak arasında görüş keçirilib.

# Bu gün saat 12-dən sonra sarı zolaq qadağası bitir

**DİN Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) IV İslam Həmrəyliyi Oyunları ilə əlaqədar paytaxtın bəzi küçə və yollarında tətbiq olunan məhdudiyyət müddətlərininlərin bitməsi ilə bağlı müraciət edib.**

İdarədən APA-ya daxil olan müraciətdə bildirilir ki, paytaxtda keçirilən Bakı-2017 IV İslam Həmrəyliyi Oyunları ilə əlaqədar şəhərin bəzi küçə və yollarında sarı xətlərlə xüsusi "Oyun zolaqları" çəkilib ki, həmin zolaqlarla may ayının 5-dən 25-dək operativ və oyunlara cəlb edilmiş avtomobillər istisna olmaqla digər nəqliyyat vasitələrinin hərəkəti qadağan olunub.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş DYP İdarəsi sürücülərin diqqətinə çatdırır ki, Bakı şəhərində nəqliyyat vasitələrinin rahat və fasiləsiz hərəkətinin təmin olunması məqsədi ilə cari il may ayının 23-ü saat 12:00-dan sarı xətlərlə nişanlanmış xüsusi zolaqlarda hərəkətə tətbiq olunmuş məhdudiyyətlər ləğv olunur.

# "Bundan sonra yalnız konsert proqramı ilə gündəmə gəlmək istəyirəm" - Könül Xasıyeva

**Xalq artisti Könül Xasıyevanın ağır vəziyyətə düşməsi xəbəri pərəstişkarlarını sarsıdıb. Qeyd edək ki, müğənni artıq bir neçə müddət idi ki, ekranlara, səhnəyə çıxmırdı. Bu günlərdə isə xalq artisti ATV-yə açıqlamasında uzun müddətdir ki, onurğa iflicindən əziyyət çəkdiyini bildirib. Müğənni onun haqqında yayılan yalan şayiələrə də münasibət bildirib: "Dəri xərçəngi ilə bağlı yazı çıxmışdı. Kimsə bunu anama deyib. Şəkər xəstəsidir, təzyiqi var, çox çətin anlar yaşayıb. Düzdür, səhhətimlə bağlı bəzi problemlərim var, övladım da xəstədir. Ancaq mən dəri xərçəngindən əziyyət çəkmirəm. Ömrümün 6 ilini övladıma həsr elədim, heç kimə bildirmədim. Özüm o yükün altına tək girdim. Oğlum Kazımın indi 9 yaşı var. 3 yaşından narahatdır. Son 2 ildə vəziyyəti daha da pisləşib. Hər şeydən geri çəkildim. Evimi, maşınımı oğlumun yolunda qurban elədim. Amma əvəzində balamı, çox şükür, ikinci dəfə qazandım".**

Xalq artisti "Yeni Müsavat"ın əməkdaşına verdiyi açıqlamasında artıq mətbuata danışmaq istəmədiyini bildirdi: "Bundan sonra yalnız konsert proqramı ilə gündəmə gəlmək istəyirəm. İnşallah ki, yenidən səhnəyə döndüyüm zaman işıqlı məlumatlar dərc edərsiz".

**Qeyd edək ki, xalq artisti səhhətində yaranmış problemlərlə bağlı ölkə başçısına müraciət edib.**

❑ Xalidə GƏRAY

**Yorğun idim, yuxum gəlirdi. Deputat Araz Əlizadənin müsahibəsi qarşıma çıxdı və yuxum qaçdı. Yuxumuzu qaçırmaq istəyən adamlara cavab verməyimiz gərəkdi. Araz Əlizadəyə sual verirlər: “Rusiya Ali Məhkəməsi Moskvadakı Azərbaycan diaspor təşkilatının qeydiyyatını ləğv edib. Buna necə baxırsız?”. "Düz edib, pis işləyiblər, ona görə ləğv edib" - deyir.**

**Aysel ƏLİZADƏ**



# Araz Əlizadəyə Rəsulzadə dərsi

## “Biz yetmiş il Sovetlər Birliyində Rəsulzadənin Azərbaycanı kimi qaldıq. Sovetlər dağılandan sonra da onun Azərbaycanı kimi yaşamağa davam edirik”

Türk deyil, anladıq.

Hansı ölkədən, hansı xalqdandı, onu anlamaq çətindi.

Özünə, öz xalqına tənqid və obyektivlik nümunəsi sərgilədiyini də düşünmürəm. Çünki heç bir Avropa ölkəsindəki olaya belə obyektivlik görmədik ondan. Elədiyi Rusiyanı malalamaqdan başqa bir şey deyil.

Müsahibədə qıcıq yaradan başqa cavablar da var. Məsələn, “bəzi adamlar ”mən türkəm" deyir. Onların etdiyi anqırmaqdı" - kimi tərbiyəsiz ifadələr.

Bəzi adamlar dediyin, yoldaş Əlizadə, bu ölkənin aydınları və onların xalqıdı. Bir bax, siyahıda kimlərin adı var. Maraqlan, gör kimlərə ilişirsən.

Deyir, mən azərbaycançıyam. Bahoo! Biz çörəyi qulağımıza yemirik, yoldaş Əlizadə! Azərbaycançılıq ideyası nə vaxtdan iyrənc niyyət üçün istifadə edilir?

Atamın babası danışarmış ki, bizim başburudumuzda (pasportumuzda) türk yazılmışdı. Rus gəlib bizim milli kimliyimizin adını dəyişdi, soyadlarımızı da “ov” sonluğu ilə ata, baba adına qoşdu.

Bu tarixin canlı şahidləri olub, onlar da bildiklərini öz nəsil, kötükcələrinə danışıb yaşadıblar. Biz də çoxuq, zənn etdiyiniz kimi “bəzi” deyilik, lap çoxuq!

Və kimə lazımdı cavab verməyə hazırıq. Rusiyanın da, başqa əl uzadanların, dil uzadanların da qabağına çıxmağa cəsarətimiz, ağlımız çatar. Sizin indi elədiyiniz babalarımızın danışdığı həmin o siyasəti xatırladır.

Türk deyilmişik.

Türk dili ünsürləri bizə Səlcuqlardan gəlib deyirsiz. Hansı ünsürlərdir o? Səlcuqlara qədər biz hansı dildə danışırdıq - buna da aydınlıq gətirin.

Azərbaycan dili dediyiniz tarixi kateqoriya türk dilləri qrupuna aiddi. Bu xalq bu dildə şifahi ədəbiyyat - folklor yaradıb. Aşıq sənəti, el yaradıcılığı var. Xalqın başqa dildə bir dənə folk nümunəsi yoxdu. Siz dediyiniz şey əlifbadı. Zaman-zaman bu xalqın əlifbası dəyişib, dəyişdirilib. Ancaq xalq həmişə öz dilində danışıb. Və o dil türkcədi.

Müsahibədə Elçibəyin saxta yolla hakimiyyətə gəlməsi, əslində, Nizami Süleymanovun prezident seçilməsi kimi sayıqlamalar da var. Ən faciəvi yeri isə Rəsulzadə ilə bağlıdı.

Cümhuriyyəti, Rəsulzadəni kölgələməyə çalışmaqdı. “Rəsulzadə Azərbaycan üçün heç nə etməyib” deməkdi.

Bu cür məsuliyyətsiz sözlər danışmaq Yerdə oturub Kainatı danmağa, gözünü qapadıb Günəşi görməməyə bənzəyir. Daha qabası, başını kola dürtüb dünyanın ancaq həmin koldan ibarət olduğunu düşünmək kimi görünür.

“Heydər Əliyev Azərbaycanı qorudu, amma Rəsulzadə yox” deməklə gözdən pərdə asmaq üçün Heydər Əliyevin adından istifadə edir. Altdan-altdan sözçüsü olduğu tərəfə xidmətdə nə lazımdısa, onu söyləyir. Eyni zamanda “mən Rusiyanın adamı deyiləm, Putinlə ömrümdə görüşməmişəm” söyləyir.

Guya Rusiyanın adamı olmaq üçün Putinlə görüşmək lazımdı. Guya Rusiyanın adamları birbaşa prezidentlə görüşüb göstəriş alırlar. Biz doğrudan belə sadəlövh görünürük?

Aldatmaq istədiyiniz adamlar sizdən ağılsız deyillər. Rusiyanın tapşırıqlarını verən o qədər adam var, o qədər görəvli var ki, onlardan keçib Putinə çatmaq heç mümkün də deyil.

Hamı hər şeyi çox incəliklə görür.

Heydər Əliyev “azərbaycançılıq” ideyasını yayırdı. Azərbaycançı idi, bəli. Heydər Əliyev Rəsulzadəçi idi. Çünki onun yaratdığı Azərbaycanı, azərbaycançılıq ideyasını təbliğ edir və o xətti tuturdu.

Oktyabr inqilabından sonra gürcülər, ermənilər bizim torpaqlarda özlərinə sərhədlər çevrələyib respublikalarını yaratdılar. Rəsulzadə və ideyadaşları Azərbaycanın sərhədini cızdı, adını qoydu. Azərbaycanı doğdular! Yoxdan bir dövlət yaratdılar, ona bayraq ucaltdılar.

Cümhuriyyəti tələsik elan etdilər, min əziyyətlə tanıtdılar ki, Azərbaycan parçalanıb məhv olmasın.

Və biz Sovetlərin tərkibinə onların qurduğu Azərbaycan kimi girdik. Bu tarix yazılmasaydı, Rusiya bizi bir ərazi kimi işğal edib, adımızı nə qoyacaqdı, bəlli deyil.

Biz yetmiş il Sovetlər Birliyində Rəsulzadənin Azərbaycanı kimi qaldıq. O adla. Amma sərhədlərimizi dəyişdilər. Torpaqlarımızı aldılar. Zəngəzuru, Göyçəni, İrəvanı, Dərələyəzi, sonra da Qarabağı aldılar. Yoldaş Əlizadə, bütün bunlar Sovetlərdə Rusiyanın etdiyi oyunlar idi. Rəsulzadənin siyasəti o qədər güclüydü ki, Sovetlər dağıldı, amma biz onun qurduğu Azərbaycan kimi yaşamağa davam etdik. Ölmədik. Məhv olmadıq. Parçalandıq, amma sağ qaldıq. Rusiya boyda əjdahaya tab gətirdik. Qazandıq. O, bilirdi: “Bu qalibiyyət günəşi qızıl istibdad zülmü altında inləyən əziz vətənimizdə 1918 28 mayıs kimi yenidən doğacaqdır”.

Bu sözləri söyləyəndə şübhə etməyin demişdi. Nə qədər haqlıydı!

Biz gələn il bu tarixin 100 illiyini keçirəcəyik. Rəsulzadə bu tarixi yazmasaydı, yaratmasaydı, bizim Respublika Günümüz - 28 Mayımız olmayacaqdı, adam!

Deyirsiz, Heydər Əliyev müstəqil Azərbaycanı qoruyub.

Qoruyub, bəli. Bunu heç kim danmır. Amma Heydər Əliyevin xidmətlərini onun siyasi əcdadının xidmətlərini yerə vurmaqla tərif etmək sizin həddinizdə deyil. Hansısa tarixi kəsimdə Heydər Əliyevin Rəsulzadəyə, Elçibəyin Əliyevə siyasi müstəvidə müəyyən təqdir və tənqidi münasibəti ola bilərdi. Buna qarışmaq sizlik deyil. Bu, çox böyük siyasətdi.

Mən azərbaycançıyam deyirsiz. Sualıma cavab verin: Kim verib bu adı ölkəyə?

Adamın ağlına çox şey gələ bilər. Hər ağıla gələni danışmazlar.

99 illiyidi bu cümhuriyyətin.

Başınızı qaldırıb, ətrafa baxın. Sosial şəbəkədə hər kəs profil şəklini cümhuriyyət tarixinə bağlayıb. Onun səslləndirdiyi “yaşa, yaşa, çox yaşa” sözlərini təkrar edir millət. Mobil operatorlar Rəsulzadənin səsini xidmətlərinə əlavə ediblər. Hər kəs bu möhtəşəm gün ətrafındadı.

Siz necə siyasətçisiniz ki, bu durumu görmürsüz. Dövlətin gəlib çıxdığı nöqtəni duymursuz. Azərbaycan dövlətçiliyinə qarşı çıxırsız.

Barak Obama ABŞ-ın prezidenti olanda Azərbaycan prezidenti İlham Əliyevə 28 Mayla bağlı təbrik göndərdi. Mətn təxminən belə idi: “Biz Rəsulzadənin qurduğu demokratiya ənənəsi olan Azərbaycanın yanındayıq”.

Onlar qurucuları, ilklərə sayğıyla yanaşırlar. Siyasi əcdadlarını hörmətlə anırlar. Bu, ənənədi. Corc Vaşinqtonun adını təzimlə anmaları buna görədi.

Ola bilər ki, siz ABŞ siyasətçilərindən ağıllı sayırsız özünüzü. Amma parlamentdə oturub bu ölkənin təkrar Rusiya tərəfindən işğal olunacağı günü gözləməyinizə böyük təmkin hissi ilə yanaşa bilmərik. Özünüz də işğalçısız. Mandatı necə qapdığınızı hamı görüb.

Adam elə deputat olmaz. Tüpürüm o mandata ki, orda olub vətənimi satmalıyam.

Rəsulzadə bizim üçün hər şeyindən keçib. Hitlerlə görüşüb, “mənim ölkəmi azad et” deyən adamdan danışanda ehtiyatlı olun.

Hitler bu uca boy, qarabuğdayı adamı diqqətlə süzüb. Danışıqda kim olduğunu anlayıb. İşbirliyinə dəvət edib. Azərbaycanın adını Hitler ilk dəfə Rəsulzadədən eşidib. Yoxsa hardan bilərdi, materikin içində, göl kənarında bir ölkənin var olduğunu.

İstəyini qəbul etməyib. Edə bilməzdi. Amma başqa xahişini yerinə yetirib. Mən axtara-axtara o dönəmlərin canlı şahidi olan adamların nəvə-nəticələrini tapdım. Onların da babaları danışıb bunu: Əsir düşərgəsində olanda içəri girib azərbaycanlıları çıxarıblar. Çıxanda deyiblər: sizin bir lideriniz var - Rəsulzadə. Hitlerlə görüşüb, sizinkiləri azad etməyi xahiş edib.

Beləliklə, azərbaycanlıları düşərgələrdən burjuy evlərinə işəməyə göndəriblər. Onları həmin evlərdə incidən olmayıb.

Hər dəfə Rəsulzadənin həyatını oxuyanda gözlərim dolur. Rusiyadan qurtulub, Türkiyəyə sığınıb. Rusiya onu Türkiyə hökumətindən geri istəyib. Türkiyə ölkəni tərk etməsi üçün 3-4 gün vaxt verib. O da Polşaya məktub yazıb. Yazıb ki... getməyə yerim yoxdu, məni qəbul edin.

Belə bir qaçaraq həyatı olan adam dünya ölkələri bir-birinə dəydiyi zaman kəsiyində vətənini xilas etmək üçün çaba göstərib.

Bunu anlamaq hər adamın işi deyil. Bunun üçün böyük ürək lazımdı. Ölkənə böyük sədaqət hissin olmalı. Böyük missioner kimi atılmalısan mübarizəyə.

Bu dəhşətli dərinlikdi. Ora hər adam baş vura bilməz. O, dəhşətli adam idi. Rəsulzadəm idi. Canımın içi. Sərkərdəm!

Başımı uyuduğun məzarın başdaşına söykəyib saatlarla içimi boşaltmağım gəlir...

Nə böyüklükdə adamlar var. Gedim rahat yatım.

Araz Əlizadə kim idi?..

# ABŞ-ın xüsusi prokuroru Ziya Məmmədovun Trampla əlaqələrini araşdıra bilər

## Okeanın o tayında sabiq nazirin də taleyini həll edəcək proseslər başlandı

**ABŞ-da prezident Donald Trampın Rusiya ilə əlaqələrini və Moskvanın Amerika seçkilərinə müdaxiləsini araşdırmaq üçün xüsusi prokuror təyin olunub. Federal Təhqiqatlar Bürosunun keçmiş direktoru Robert Müller Trampın Rusiya ilə birbaşa və dolayısı təmaslarına dair bütün faktları, o cümlədən onun müxtəlif ölkələr üzrə şübhəli biznes sövdələşmələrini araşdıracaq.**



Ziya Məmmədov

Bu araşdırmalar Azərbaycanın sabiq nəqliyyat naziri, onun ailəsinin sahib olduğu “Garant holdinq” üçün də yaxşı nəticələr verməyə bilər. Sabiq nəqliyyat naziri hakimiyyətdaxili oyunlardan nisbətən az itki ilə çıxa bilsə də, belə görünür ki, qlobal araşdırmaların qurbanına çevirilə bilər.

Məlumdur ki, Məmmədovlar Trampın icazəsi ilə Bakıda “Trump Hotel” inşa etdiriblər.

ABŞ-ın “The Daily World” nəşrinin yazdığına görə ədliyyə nazirinin 3915 saylı əmrinə əsasən Robert Müller Trampın özünün və yaxın ətrafının, habelə onun “Trump Organization” şirkətinin “Rusiya hökuməti və ona bağlı şəxslərlə istənilən əlaqəsini və ya koordinasiyalı fəaliyyətini”, habelə araşdırmanın gedişində meydana çıxan və ya çıxa biləcək istənilən sualları araşdırmaq səlahiyyətindədir. Bu isə o deməkdir ki, Trampın və adamlarının 2016-cı il prezident seçkiləri ərəfəsində atdığı bütün addımlar, bütün biznes sövdələşmələri araşdırma predmetidir.

Beləliklə, keçmiş FTB direktoru Trampın, komandasının üzvlərinin və ailə üzvlərinin Cənubi Floridadakı Mar-a-Laqo iqamətgahında Rusiya nümayəndələri ilə görüşlərini, kürəkəni Cared Kuşnerin prezident seçkilərindən dərhal sonra Nyu-Yorkdakı “Trump Tover”də Rusiya səfiri Sergey Kislyakla görüşünü və bütün digər təmasları araşdıracaq.

Trampın şəxsi hüquq müşaviri Maykl Koen də xüsusi prokurorun potensial təhqiqat obyektidir. Maykl Koenin Bakıdakı “Trump Hotel”in fonunda Trampın qızı İvanka və digərləri ilə çəkilmiş fotosu internetdə resurslarında yer alır.

Yada salaq ki, Bakıda “Trump Hotel”i Ziya Məmmədovun ailəsi “Trump Organization”la françayzinq müqaviləsi əsasında tikmişdi. Lakin seçkilərdən 1 ay sonra Tramp bu müqaviləni ləğv etdi. Buna baxmayaraq Trampın Bakıdakı otelə onun adının verilməsi və layihənin idarə edilməsi üçün Məmmədovlardan 2 milyon 800 min dollar aldığı məlumdur. Sənədlərdə “Trump Hotel”in sahibi kimi Ziya Məmmədovun qardaşı Elton Məmmədovun "Baku XXI Century" LLC şirkəti çıxış edir. Lakin layihənin keçmiş nazirin oğlu Anar Məmmədov tərəfindən həyata keçirildiyi məlumdur. hotel hazırda yarımçıqdır və istifadəyə verilməyib.

**Xüsusi prokurorun araşdırması həm də hotelin gələcək taleyini müəyyən edəcək. Bakının mərkəzindəki hotel illərdir ki, istifadəsizdir. Təhqiqat müddətinin bir neçə aydan 1 ilə qədər uzanacağı da bildirilir. İstənilən halda yaxın 1 il ərzində ABŞ prezidenti ilə yanaşı Azərbaycanın sabiq nəqliyyat nazirinin də taleyini həll edəcək araşdırmaların nəticələri ortalıqda olacaq.**

❑ E.HÜSEYNOV

**"Rəsulzadə Azərbaycan üçün heç nə etməyib, Elçibəy də qiyamla prezident olmuşdu". Bu sözləri deputat Araz Əlizadə ölkə.az saytına verdiyi müsahibəsində bildirib. Mütəmadi olaraq qıcıq doğuran açıqlamaları ilə gündəmə gələn deputat bu dəfə də, xüsusən də Azərbaycan Xalq Cumhuriyyətinin yaradılmasının 99 illiyi ərəfəsində səsləndirdiyi fikirlərə görə kəskin tənqid obyektinə çevrilib. Qeyd edək ki, bundan əvvəl də, zaman-zaman bəzi məmurlar, Rəsulzadə şəxsiyyəti haqqında hədyanlı fikirlər söyləyib, onu aşağılamağa çalışıblar. Lakin ictimaiyyətin kəskin reaksiyaları, tənqidləri onları tutarlı şəkildə susdura bilib.**

# Araz Əlizadənin Rəsulzadə açıqlamasına kəskin reaksiyalar

Araz Əlizadənin də səsləndirdiyi son hədyanlı fikirlərə görə ilk reaksiyalar həmkarları tərəfindən gəlib.

"Yeni Müsavat"a danışan **deputat Fazil Mustafa** həmkarının səsləndirdiyi fikirlərin absurd olduğunu bildirdi: "Hamısı absurd, heç bir məntiqi əsası olmayan fikirlərdir. Əvvəla, mərhum Əbülfəz Elçibəy səsvermə yolu ilə prezident seçilmişdi. Və həmin zaman heç bir qiyam da olmayıb. Prezidentliyə namizədliklər verildiyi vaxtlarda 14 may çevrilişi baş verib və ona qarşı xalq tərəfindən reaksiya verilib. Elçibəy hansısa qurum yaradıb onun başına gəlməyib ki... Seçki yolu ilə xalqdan səs alıb hakimiyyətə gəlmişdi. Ona görə də Araz Əlizadənin "Elçibəy də qiyamla prezident olmuşdu" fikirləri olduqca absurd və səhv yanaşmadır.

Rəsulzadə haqqında səsləndirdiyi fikirlərə gəldikdə isə bir məsələyə diqqət etmək lazımdır. Kimsə Rəsulzadənin rolunu kiçiltməyə çalışırsa, əslində bu həmin şəxsiyyətin xeyrinədir. Çünki bu cür yanaşmalar olanda insanlar bir daha gedib Rəsulzadə haqqında oxuyur, bir daha aydınlaşdırırlar ki, necə ola bilir ki, 20-ci əsrin əvvəllərində millət kimi formalaşmadığımız bir zamanda adam dövlət, bayraq kəşf etsin və bu gün də onlar olduğu kimi yaşasın, özü də şəxsiyyət kimi aktuallığını itirməsin. Bundan böyük nəhənglik ola bilərmi? Ona görə də Rəsulzadənin haqqında bu cür fikirlərin səslənməsi ümumi işin xeyrinədir ki, hər kəs bir daha onun böyüklüyünü anlamaq üçün bir daha ona müraciət etməli olur. Bu baxımdan da hansısa bu cür əsası olmayan fikirlərin istər millət vəkili, istərsə də digər şəxslər tərəfindən səslənməsi böyük nəticə doğurmur və Rəsulzadənin Azərbaycan tarixində olan möhtəşəm rolunu qətiyyən azaltmır, əksinə insanlara onu daha çox dərk etməsi fürsəti yaradır. Ona görə də mən bu cür fikirləri səsləndirən insanların üzərinə çox da gedilməsinin tərəfdarı deyiləm. İndi fikirdir, öz sözlərini deyirlər. Amma beləliklə, özlərini pis vəziyyətdə qoyurlar. Çünki həqiqətə uyğun olmayan fikirlər deyəndə hər halda cəmiyyət tərəfindən dəyərləndirilməsi də müsbət olmur, bu onların özlərinə ziyan gətirir".



**Fazil Mustafa:** "Bu cür fikirlərin səslənməsi ümumi işin xeyrinədir... "



**Nəsiman Yaqublu:** "Tarixi şəxsiyyətləri aşağılamağa çalışanlar gedib kitab oxusunlar"



**Niyaməddin Orduxanlı:** "Araz Əlizadə ünsürdür"

**Tarixçi Nəsiman Yaqublu** isə qeyd etdi ki, Rəsulzadəyə qarşı bu cür kampaniyanın başlanması əslində gözlənilən idi: "Azərbaycan Xalq Cumhuriyyətinin yaranmasının 100 illiyi ələqədar ölkə başçısı sərəncam imzaladı. Bundan sonra bu cür reaksiyaların veriləcəyi, müəyyən adamların narahatçılıq keçirəcəyi gözlənilən idi. Bu reallıq bir neçə faktı ortalığa qoyur ki, həqiqətən də bu cumhuriyyətin yaradılmasında, formalaşmasında, bütün olaraq inkişaf etdirilməsində Rəsulzadənin əvəzsiz xidmətləri vardır. Və o, bu cümhuriyyətin baş ideoloqu, qurucusu və yaradıcısıdır. Ona görə də Rəsulzadəni gözdən salmağa çalışan bu cür insanlar bu kampaniyaya artıq başlayıblar. Mən hələ gözləyirdim ki, niyə onlar gecikirlər. Çünki gözləyirdim ki, sərəncam imzalanandan sonra onlar artıq öz kampaniyalarına başlayacaqlar. Onlar hələ bir qədər hövsələlik nümayiş etdirərək, bir neçə gündən sonra bu cür reaksiyalara start verdilər. Hətta daha əcaib şeylər görəcəyik. Amma mən arzulayardım ki, onlar heç olmasa cumhuriyyətin 100 illiyinə, tariximizə hörmətlə, sayğı ilə yanaşsınlar. Ölkə prezidentinə mən təkliflər göndərmişəm. Həmin təkliflərdə də bildirmişəm ki, bu tarixi təkcə biz qeyd etmirik, eyni zamanda Gürcüstan, Ermənistan və digər ölkələr də qeyd edirlər. Həmin ölkələrin heç birində dövlətin qurucularına qarşı bu cür kampaniya aparılmır və güman edirəm ki, heç aparılmayacaq da. Bizdə isə eybəcər halda kampaniya, təbliğat aparılır. Bunun heç bir effekti də yoxdur. Çünki Rəsulzadə haqqında onlarla cild kitablar hazırlanırsa, imkan daxilində bu tip kitabları çap edir və davam ediriksə, bunlar bir daha sübut edəcək ki, Azərbaycanın Xalq Cumhuriyyətinin yaradıcısı, qurucusu Rəsulzadədir. Ən azından o yoxdan dövlət qururaq ayağa qaldırmışdı, üç rəngli bayrağımızı dövlətimizin əsas rəmzlərindən birinə çevirib və Azərbaycan tarixində ilk dəfə olaraq demokratik və hüquqi prinsipə əsaslanan dövlət qurmuşdu. Bunun heç kim tarixdən silə bilməyib, necə ki, 70 il sovet hakimiyyəti silə bilmədi, indi də müəyyən adamlar buna nail ola bilməyəcək. Rəsulzadə 20-ci əsr tarixinin ən böyük şəxsiyyətidir. Tarixi şəxsiyyətləri aşağılamağa çalışanlar gedib ilk növbədə kitab oxusunlar. Onlar bilmədikləri məsələlərə qarışırlar".

**BAXCP-in sədr müavini Niyaməddin Orduxanlı** isə qeyd etdi ki, Araz Əlizadə bundan əvvəl də dəfələrlə tarixi şəxsiyyətləri təhqir edib, aşağılayıb:

"Dəfələrlə Azərbaycan cəmiyyəti bunun şahidi olub. Nəinki Məmmədəmin Rəzulzadəni, Əbülfəz Elçibəyi və 1918-ci ildə Azərbaycan türklərini erməni-rus soyqırımından qurtaran Nuru Paşanı təhqir edib. Bunun qardaşı Zərdüşt Əlizadə də eyni mövqeydədir. Bunlar ailəlikcə türk etnosuna ikrahla yanaşıblar. Fürsət düşdükcə bütün təhqirlərə əl atıblar. Buna görə, konkret demək olar ki, Araz Əlizadə ünsürdür. Və böyük bir türk xalqını gözdən salmaq istəyən və Azərbaycanın müstəqlliyini qazanmış tarixi şəxslər haqqında bu cür həqarətlə danışan adamın başqa adı ola bilməz! Azərbaycan türklərini böyük bir soyqırımdan qurtaran Nuru Paşamız birbaşa Bakını erməni-rus hərbi birləşməsindən azad edərək Azərbaycan Demokratik Cümhuriyyətinin yaranmasına da olan maneəni aradan qaldırmış olub. Onu da deyim ki, hər dəfə Araz və Zərdüşt Əlizadənin bu sərsəmləmələrinə cəmiyyət çox sərt reaksiya verir. Sosial şəbəkələrdə bu məxluqların türk millətinə patoloji nifrətinin olmasından yazılır. Azərbaycan xalqının yaxşı bir el misalı var: "Ot kökü üstündə bitər". 1975-ci il də Əbülfəz Elçibəy siyasi dissident kimi məhkəmə qarşısında mühakimə olunarkən Araz Əlizadənin atası Mübariz Əlizadə məhkəmə prosesində bir neçə dəfə çıxış edərək ona qarşı kəskin mövqe tutduğunu yaşlı və orta nəsil bu gün də lənətlə xatırlayır. Prosesin sonunda hakim Əbülfəz Elçibəydən soruşur ki, son söz demək istəyirsinizmi? Əbülfəz Elçibəy hakimdən xahiş edir ki, mənə son söz üçün ayıracağınız vaxtı Mübariz müəllimə verin, qoyun özünü bir az da artıq biabır eləsin... İndi də bu qardaşlar özlərini biabır etməklə məşğul olurlar".

❑ **Xalidə GƏRAY**

# Ölən vəzifəli şəxsin ailəsinə hansı yardım edilir?



## **Hüquqşünas:** "Kompensasiyanın məbləğinə yenidən baxılmasına ehtiyac var"

**Mətbuatda tez-tez müxtəlif vəzifə sahiblərinin dünyalarını dəyişməsi ilə bağlı xəbərlərə rast gəlirik. Son olaraq Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini, rayon Fövqəladə Hallar Komissiyasının sədri İlqar Dadaşovun vəfatını qeyd etmək olar. Belə ki, 1956-cı il təvəllüdlü İlqar Dadaşov Lənkərandan Bakıya gedərkən yolda ürəktutmadan ölüb.**

*Bəs maraqlıdır, ölkədə qanunvericiliyə görə dövlət vəzifəsində təmsil olunan şəxslər dünyasını dəyişərlərsə onların ailələri üçün hər hansı bir güzəşt, təzminat tətbiq olunurmu?*

"Yeni Müsavat"a danışan **hüquqşünas Ələsgər Məmmədli** bildirib ki, Azərbaycan qanunverciliyinə görə ailə başçısı dünyasını dəyişərsə, azyaşlı uşaqlara dövlət tərəfindən yardım edilir: "Əgər ailədə azyaşlı uşaq varsa, valideyn itirməyə görə 18 yaşına qədər ona dövlət tərəfindən yardım edilir. Uşaq təhsilini davam edərsə, kompensasiyanın müddəti onun 23 yaşına qədər uzadılır. Bu normalar vəzifəsindən asılı olmayaraq hər kəsə tətbiq olunur. Lakin prezident və onun ailəsi ilə bağlı xüsusi qanun mövcuddur. Belə ki, onun ailə üzvləri də qoruma altındadırlar və müəyyən kompensasiya alırlar. Qanuna görə hansısa dövrdə prezident olmuş şəxsin özünə və dünyasını dəyişdikdə ailəsinə də istər təchizatı, istərsə də maddi baxımından yardım edilir. Yəni prezident və onun ailəsi üçün digər şəxslərə aid olmayan proseduralar müəyyən olunub. İş prosesində isə dünyasını dəyişən hər kəsin ailəsinə kompensasiya ödənilir. Yəni bu məsələdə hər hansı bir fərq qoyulmur. Bundan başqa isə son zamanlar qanuna məcburi sığorta məsələsi də salınıb. Belə ki, ölən şəxslərin ailələrinə onların işinin risk qrupuna görə müəyyən sığorta tətbiq olunur. Bəzən bu prosedura uyğun olaraq ailəyə ödənilən məbləğ 100 min manatdan da çox ola bilir. Həmçinin daha az miqdarda da sığorta oluna bilər. Əgər şəxsin bilavasitə iş prosesini yerinə yetirən zaman dünyasını dəyişməsi həqiqətən də sübut olunarsa, o zaman sığorta olunmuş məbləğ ailəyə tam həcmdə ödənə bilər".

**Hüquqşünas bildirib ki, Azərbaycanda bu məsələ ilə bağlı proseduralar getdikcə beynəlxalq standartlara uyğunlaşdırılır:** "Lakin müəyyən problemlər də yox deyil. Xüsusilə bizdə problem o zaman yaranır ki, bir şəxs uzun müddət eyni yerdə işləyib, ancaq hansısa səbəbdən işdən çıxarılırsa, verilən kompensasiyanın məbləği çox az olur. İşdən çıxma müavinəti olaraq staja görə daha çox kompensasiya verilməlidir. Ailə başçısını itirməyə görə də verilən kompensasiya məbləğləri, hesab edirəm ki, çox aşağıdır. Bununla bağlı gerçək iqtisadi, sosial şərtlər nəzərə alınıb daha sonra doğru rəqəmlər müəyyən olunmalıdır. Məsələn, bir ailə başçısının itirilməsinə görə 100 manat müavinətin verilməsi əslində o ailənin faktiki olaraq heç bir işinə yaramır. Bu məbləğ sadəcə olaraq çörəkpuluna çata bilər. Ancaq normalda dünyasını dəyişən ailə başçısının maddi baxımdan boşluğu dolmur. Ona görə də təəssüf ki, iqtisadi baxımdan bu məsələlərə yanaşılması zəruri olduğu halda, belə addım atılmır. 100 manat bir uşağın inkişafı üçün heç də normal məbləğ deyil. Bu gün əgər minimum istehlak səbəti bir nəfər üçün 150 manat müəyyən olunursa, 5 nəfərlik ailə üçün minimum 750 manat lazımdır. Bu məsələlər gərək düzgün hesablansın. Hesab edirəm ki, problemin həlli üçün müəyyən fondlar təyin olunmalı və dövlətin qayğısı hiss edilməlidir".

**Xarici ölkələrdə bu məsələlərin necə tənzimlənməsinə gəlincə isə Ə.Məmmədli aşağıdakıları bildirib:** "İnkişaf etmiş ölkələrdə bununla bağlı demək olar ki, heç bir problem yoxdur. Həmin ölkələrdə dövlət tərəfindən ailə başçısını itirmiş şəxslərin qayğısı tam olaraq nəzarətə götürülür. Çünki orada həm də məcburi olaraq normalar nəzərdə tutulub. Bu normalara görə işləyən şəxsin həyatı, əməyi sığortalanır".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 109 (6723) 23 may 2017

# Az.TV anti-Azərbaycan qüvvələrin arxasındakı adamı göstərdi...




**Ötən həftə Rusiya Ali Məhkəməsinin Ümumrusiya Azərbaycanlıları Konqresinin(ÜAK) qeydiyyatının ləğv olunması barədə qərarı rəsmi Bakıda ciddi narazılıq yaratsa da, hakimiyyət təmsilçiləri kifayət qədər ehtiyatlı mövqe sərgilədilər.**

## Hakimiyyət Rusiyaya qarşı hərəkətə keçdi - sərt cavab

### İqtidar televiziyası ÜAK-ın ləğvi ilə bağlı qərarı qərəzli saydı və ölkəmiz əleyhinə çalışan qüvvələri ittiham etdi; Rusiya xarici işlər naziri Sergey Lavrovun erməni ilə öpüşməsinin efirə verilməsi nəyə işarədir?

Xatırladaq ki, mayın 15-də Rusiya Ali Məhkəməsi Ədliyyə Nazirliyinin iddiasını təmin edərək, ÜAK-ın qeydiyyatının ləğv olunması barədə qərar verib. Ədliyyə Nazirliyi ÜAK-ın fəaliyyətində Rusiya Federasiyasının qanunvericiliyinin pozulduğunu iddia edir. ÜAK-ın prezidenti Fazil Qurbanov qərarı ədalətsiz adlandırıb. O, apelyasiya şikayəti verəcəklərini bildirib.

Mayın 21-də Az.TV-nin "Həftə" analitik-informasiya proqramında bu qərarla bağlı süjet efirə verilib. "Qərəzli qərar" başlığı ilə efirə verilən süjetdə ÜAK-ın ləğvi Azərbaycanın regionda reallaşdırdığı qlobal layihələrə Rusiya dövlət orqanlarındakı ermənipərəst məmurların fəaliyyəti kimi qiymətləndirilib.

Qeyd olunub ki, postsovet məkanında Azərbaycan müstəqil siyasət yeridən nadir ölkələrdən biri olması bir çox qüvvələrin xoşuna gəlmir. Rusiya prezidenti Vladimir Putinin Bakıya səfəri ilə müşahidə olunan süjetdə rusların Azərbaycanda rahat yaşaması, həm dini, həm mədəni ənənələri üçün bütün şəraitin yaradıldığı, rus dilinin inkişafı və rus icmalarının sərbəst fəaliyyəti qeyd olunur. Bildirilib ki, Azərbaycanın dünyada artan rolu bəzi dairələrin narahatlığına səbəb olub.

Vitse-spiker Bahar Muradova deyib ki, bu qərarın arxasında olan qüvvələr Azərbaycanla Rusiya arasında münasibətləri "düşmənçilik həddinə çatdırmaq" niyyəti güdüblər ki, bu niyyət alınmayacaq.

O da vurğulanıb ki, bu qərarın qəbulunda Rusiyanın ədliyyə sisteminə yerləşmiş ermənipərəst şəxslərin rolu da az olmayıb. Bundan sonra efirdə əvvəl Rusiya hökumətinin, sonra isə Rusiya XİN-in binası görünüb. Bundan sonra isə iki maraqlı persona efirdə görünüb. Belə ki, efirə Rusiya Erməniləri İttifaqının sədri Abramyanın 60 illiyi ilə bağlı Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskovla xarici işlər naziri Sergey Lavrovun tədbirdə iştirak etdiyi, erməni diaspor təşkilatının sədri ilə qucaqlaşmaları, xarici işlər nazirinin qol-qola şəkil çəkdirmələri verilib. "Təəssüf ki, eyni münasibət Ümumrusiya Azərbaycanlıları Konqresinə nəinki sərgilənmir, əksinə, qeydiyyatının ləğvi ilə bağlı qərar qəbul olunur. Bu birtərəfli və əsassız yanaşmanın kökündə antiazərbaycan qüvvələrinin ölkəmizin uğurlarını həzm edə bilməməsi dayanır" deyə, Az.TV bildirib.

O da qeyd olunub ki, bu kimi diaspor təşkilatları Rusiya ilə Azərbaycan arasında bir körpü rolu oynayır, "amma görünən odur ki, Rusiyadakı antiazərbaycan dairələr bunu istəmir". Hakimiyyət televiziyası bəyan edib ki, rəsmi Bakı Rusiya tərəfinin ÜAK-ın qeydiyyatının ləğvi ilə bağlı "hüquqi pozuntular" iddiasını əsassız hesab edir. Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu Komitəsinin sədri Əli Hüseynov deyib ki, Ədliyyə Nazirliyinin ÜAK-ın ləğvi ilə bağlı birbaşa Ali Məhkəməyə müraciəti bu məsələdə qərəz olduğunu təsdiqləyir. "Qanunvericilikdə başqa sanksiyada var. Məsələn, cərimə sanksiyası tətbiq edilə bilərdi". Ə.Hüseynov da Rusiya hökumətində və ədliyyə orqanlarında antiazərbaycan qüvvələrin olduğunu deyib: "Onlar yəqin ki, iki ölkə arasında strateji münasibətlərin nə olduğunu bilmirlər..."

Hakimiyyət telekanalı sonda qərarla bağlı daha ciddi mətləblərə toxunub. Yada salınıb ki, Azərbaycan Bakı Tiflis-Qars dəmiryolunu, TANAP qaz layihəsini işə salmaq ərəfəsindədir. O cümlədən bu qərarın Azərbaycan ordusunun güclənməsində və Qarabağ məsələsində tutduğu prinsipial mövqeyinin də təsiri olub. O da vurğulanıb ki, Rusiyanın Ermənistana silah satması fonunda ÜAK-ın ləğvi təsadüfə oxşamır. Bu cür ikili mövqe isə Rusiyanın həmsədr ölkə kimi tərəfsizlik missiyasına kölgə salmaq kimi qiymətləndirilir.

**Beləliklə, ÜAK-ın ləğvi ilə bağlı hakimiyyət dövlət televiziyası vasitəsilə tutarlı cavab verib. Bu mövqedə əsas xəttin Kremli qıcıqlandıran Azərbaycanın transmilli layihələrinin və Qarabağ məsələsinin üzərində cəmləşməsi diqqət çəkir. Bu siyasətin müəyyənləşməsində də əsas ağırlıq erməni ilə öpüşən Sergey Lavrovun üzərindədir. Lavrovun erməni kökənli olması bilinən faktdır, amma indi iqtidar televiziyasının da onu personasına diqqət çəkməsi təsadüfə oxşamır. Əcəba, anti-Azərbaycan qüvvələrin arxasındakı adam Lavrovdurmu?**

❑ **"YM"**

# Hacıkənddə görüş və Hacı Alının kədərli taleyi...



Xalid KAZIMLI

**Biz əslində beş ildən bir görüşməliydik. Elə şərtləşmişdik. Bu qeyd vinyetkamızda da qeyd olunmuşdu: "Hər beş ildən bir may ayının 5-də Gəncədə..." Amma deyir, sən saydığını say... Gənc məzunluğumuzun ilk beş ilində bir əsrə sığmayacaq qədər böyük hadisələr oldu. İkiqtblü dünya dağıldı, sosialist dövlətlər birliyi çökdü, SSRİ dağıldı, Qarabağ müharibəsi başladı, işləməyə başladığımız iqtisadiyyat sferası bərbad oldu və sair və ilaxır.**

Ona görə də biz tələbə yoldaşlarımızla yalnız ali məktəbi bitirməyimizin 20 illiyində, bir də 30 illiyində görüşə bildik.

20 illiyimizdəki ziyafət zamanı yazıçı Rafiq Tağıdan sitat gətirərək demişdim ki, bu gedişlə bir-iki görüşlük ömrümüz qalıb. Dostlar etiraz edib demişdilər ki, yox, bir-iki ilə yenə görüşəcəyik. Amma o "bir-iki il" dönüb on il oldu. Bu dəfə isə hər il görüşməyi qərara aldıq. Görək, fələk nə sayır...

Fələk demişkən, zalım fələk dostlarımızın beşini aramızdan vaxtsız alıb. Çoxu ürəkdən gedib. İdmançı cüssəli oğlanlar idi. Onları xatırlamaq kədərliydi.

Əlbəttə, gənclik başqa şeydir. 30 il də az vaxt deyil. Bu zaman kəsiyi 22-25 yaşlı gənclərin saçını, qıvraqlığını əllərindən alıb, əvəzində təcrübə və kilolar verib.

O kilolar üzündən bəzi dostlarımızı ilk baxışdan tanıya bilmirdik. Hətta nə vaxtsa dinməz-söyləməz şəkildə küçədə üzbəüz gəlmiş olsaq, bir-birimizin yanından sakitcə, tanımadan ötüb keçə bilərdik. Bəlkə də nə vaxtsa elə bir epizodlar olub. Amma göz və səs dəyişmir. Baxıb tanımadığın tələbə yoldaşının səsini eşidib tanıya bilərsən (Telefonda yox, təbii ki).

Amma heç dəyişməyənlər, 30 il qabaq necəydilərsə, eləcə qalanlar, bir azacıq saçlarını çallaşdıranlar var.

Ən qəribəsi o idi ki, görüşə gələnlərin içində 4, 6 nəvəsi olanlar da vardı, hazırda subay olan və 52 yaşında evlənməyə hazırlaşan da.

Bu, ağcabədili qardaşımız Alı idi. İndiki ictimai statusu ilə - Hacı Alı. Heç demə, 26-27 il qabaq Alı da bütün tay-tuşları ilə eyni vaxtda evlənmək fikrində imiş. Ancaq onun Rusiyada çalışan iki böyük qardaşı bir günün içində itkin düşüblər. Onlardan biri subay, digəri ailəliymiş. Alı bütün həyatını onların axtarışına və ailəli qardaşının övladlarının böyüməsinə həsr edib. Gənc əmi özünü oda-közə vuraraq uşaqları böyüdüb, oxudub, evləndirib, bir də onda ayılıb ki, yaşlaşıb, amma hələ subaydır.

O, çox istedadlı oğlan idi, gözəl səsi vardı. Elə bir səs ki, hazırda telekanallardan düşməyən müğənnilərin 90 faizində elə səs yoxdur. Qardaşlarının itkin düşməsinə qədər qısa bir müddət ərzində Alı İslam Rzayevin ansamblında çıxışlar edib. Ancaq həmin hadisə onun bütün həyatını alt-üst edib. Sonra ata-anası da ard-arda vəfat edib və Alı kimsəsiz qalıb.

İndi onun əvvəlki səsi yoxdur. "Siqaret səsimi məhv etdi" deyir. "Gərək çəkməyəydin" demədik. Çünki ona siqareti nəyin çəkdirdiyini bilirdik. Xahiş elədik, "Qal, sənə qurban" mahnısından bir ağız oxusun, yoğunlamış səsiylə oxudu: "Getmə, kimsəsizəm, qal, sənə qurban".

Nə qədər bəxtsiz adammış Alı. Məclisdə söz demək üçün ayağa qalxanda belə işıqlar söndü.

Hacıkəndə getməzdən əvvəl 30-35 il öncə təhsil aldığımız korpuslara, yaşadığımız yataqxanalara baxdıq. Daş-divar yerindədir. Amma o daş-divar bizə doğma gəlmədi. Çünki indi orda başqaları dərs deyir, başqaları təhsil alır. Daşın isə yaddaşı yoxdur. O bizi tanıyası deyildi.

Oraları bizə doğma edən insanlar imiş - tələbə yoldaşlarımız, dostlarımız, müəllimlərimiz. Gəncliyimiz.

Görüşə Qusardan, Lənkərandan, Gürcüstandan, Bakıdan gələnlər vardı. Lap yaxın yerlərdə yaşayanlardan isə bir çoxu gəlməmişdi - çoxu xəbər tutmayıb, bir neçəsi xəstədir, xaricdə olanlar da olub.

Ancaq ürəyi yanımızda olan, iki dəqiqədən bir zəng edən, görüntülü danışanlar da vardı. Rasim adlı dostumuz telefon ekranından görməsinə baxmayaraq, 30 il görmədiyi hər kəsi bir-bir tanıdı.

**Bugünkü məzunlara baxıram, universiteti bitirmələrinə sevinir, bir-birindən sürətlə ayrılaraq qaynar həyatın qoynuna atılırlar. İllər keçəcək, tələbəlik illəri yada düşəndə onların da ürəklərinin telləri sızlayacaq və bir-birini axtarıb tapacaqlar.**

YENİ MÜSAVAT
N 109 (6723) 23 may 2017

# İqbal Ağazadədən "agent" ittihamına sərt cavab

**Bu qədər məntiqsiz, ağılsız yazını həmin sayta yazdırıblar"; "Eldar Mahmudovla ömrümdə heç vaxt heç bir şəxsi tanışlığım olmayıb"**

**Ümid Partiyasının sədri İqbal Ağazadəyə qarşı ağır ittiham irəli sürülüb. 1News.az saytı İqbal Ağazadənin ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin rəhbəri Eldar Mahmudovun şəxsi agenti olduğunu iddia edən yazı ilə çıxış edib. Yazıda bildirilir ki, MTN-in agentura şəbəkəsinin bəzi üzvlərinin ifşa olunmasından ən çox İqbal Ağazadə narahat olub. Yazıda bu narahatlıqların arxasında ciddi səbəblərin dayandığı bildirilir: "İndi İqbal Ağazadənin Eldar Mahmudovun şəxsi sözgəzdirəni olması ilə bağlı məlumatlar öz təsdiqini tapır. O bundan çox narahatdır. Çünki o, birdəfəlik müstəqil siyasətçi imicindən məhrum oluna bilər".**

Sayt iddianı qüvvətləndirmək üçün İ.Ağazadənin E.Mahmudovla əlbir olmasıyla bağlı heç bir ciddi fakt, sübut təqdim etməyib. Müasir Müsavat Pariyasının sədri Hafiz Hacıyev və Milli Şuranın üzvü İbrahim İbrahimlinin bu məsələ ilə bağlı vaxtı ilə etdikləri çıxışlardan sitatlar təqdim edib və qeyd edib ki, H.Hacıyevin fikrincə, məhz Mahmudov vəzifədən kənarlaşdırıldıqdan sonra İqbal Ağazadə də deputat mandatından məhrum edildi.

Qeyd edək ki, bu günlərdə İqbal Ağazadə BakiPost.az-a geniş müsahibəsində həbs olunan MTN-çilər barədə danışarkən onların qaçaq-quldur olmadığını, dövlət üçün əhəmiyyətli işlər də gördüklərini deyib. O eyni zamanda agentlərin adlarının açılmasının düzgün olmadığını vurğulayıb. Ehtimal edilir ki, bundan cəmi iki gün sonra İ.Ağazadənin özünə qarşı "agent" ittihamının irəli sürülməsi həmin açıqlamasına cavabdır.

**Ümid Partiyasının sədri İqbal Ağazadə**nin saytın iddialarına münasibətini öyrəndik. İqbal Ağazadə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, 1News.az saytı hakimiyyətə yaxın saytdır heç bir fakt, sübut ortaya qoymadan yazı yazıb: "Hakimiyyət də, imkanlar da bunların əlində zəhmət çəkib yazdıqlarını sübuta edən bircə dənə də olsun fakt qoysunlar ortaya. Heç bir fakt olmaya-olmaya bu cür nağıl yazıb insanların düşüncələrini, beynini qarışdırırlar. Onu yazdıran hökumət nümayəndəsi ortaya sübut qoysun! Yazıda nə vaxtsa kimlərinsə hansısa ümumi fikrinə istinad edirlər. Adama deyərlər ki, sən o adamlara istinad edincə, konkret fakt, sübut ortaya qoy, ən azından bir hökumət nümayəndəsi çıxsın danışsın və fakt qoysun ortaya. Bu edilmir, çünki heç bir fakt, sübut yoxdur. Yazıblar ki, guya mən Eldar Mahmudova məlumat verən olmuşam. Bir ölkənin milli təhlükəsizlik nazirinə bir partiya sədrinin, deputatın verə biləcəyi informasiya nə ola bilər? Mən



İqbal Ağazadə

hansısa xüsusi xidmət orqanlarındamı, silahlı qüvvələrdəmi çalışırdım ki, o xüsusi xidmət orqanlarının planları haqda məlumat verim?! İnformasiyanın hamısı onlardadır, onlar dövlətə informasiya verirlər. Mənim verəcəyim nə informasiya ola bilər?! Yəni bu qədər məntiqsiz, ağılsız yazını həmin sayta yazdırıblar. Təəssüf ki, peşəkar insanlar, jurnalistlər bu cür absurd yazıların dalınca düşürlər".

*"Sizə qarşı o cür ağır ittihamı irəli sürən sayt və ya yazı müəllifindən məhkəməyə şikayət etməyi düşünürsünüzmü?"* sualına İ.Ağazadə belə cavab verdi: "Heç bir məhkəməyə müraciət etmək fikrim yoxdur. Cavabımı media vasitəsilə verdim".

*"Eldar Mahmudovla nazir işlədiyi dövrdə və ondan əvvəllər şəxsi tanışlığınız, görüşünüz olubmu?"* sualını isə belə cavablandırdı: "Eldar Mahmudovla mənim heç vaxt heç bir şəxsi tanışlığım olmayıb. Onu yalnız rəsmi dövlət tədbirlərində görmüşəm. Başqa heç bir halda onunla nə şəxsi görüşlərim, nə ümumi görüşlərim, nə telefon danışığım ömründə olmayıb. Heç vaxt!"

**İqbal Ağazadənin müavini Tamilla Qulami** isə sədrinin müdafiəsinə qalxıb və irəli sürülən iddiaları heç bir fakta söykənməyən fikirlər adlandırıb. "Yeni Müsavat"a açıqlamasında T.Qulami bildirdi ki, bundan öncə də hökumətyönlü saytların müxalifətdə olan siyasilərə qarşı bu cür mövqelərinə zaman-zaman rast gəlinib: "Bu məsələnin üstünə düşülüb. Əla. Bəs bir jurnalist, bir sayt niyə həmin hökumətyönümlü saytlara demir ki, ortaya bir fakt, bir bəlgə qoyun?! İqbal Ağazadə ölkənin milli təhlükəsizlik naziri olmuş, ölkədə baş verən bütün hadisələrdən bilgili, informasiyaların mənbəyi əlində olan Eldar Mahmudova bilmədiyi hansı informasiyaları verə bilərdi ki? Hansı məntiqlə bu cür şərləyici iddialar səsləndirirlər? Gülünc olan da bilirsinizmi nədir? Həmin sözügedən sayt Hafiz Hacıyevkimilərin sözlərini əsas tutub, arqument gətirir. Hafiz Hacıyevin dedikləri belə qəbul edilirsə, o zaman onun dediyi bütün sözləri qəbul etmiş sayırlar? Kimin kimdən xoşu gəlmir ona sosial damğa vurur. Bütün bunların səbəbi açıq-aşkar aydındır ki, hakimiyyətdəki bəzi qüvvələr yeni nəfəsin ortaya çıxmasında maraqlı deyil. 15 il ərzində Milli Məclisdə olduğu zaman bir siyasi xəttlə gedən İqbal Ağazadəni fəaliyyəti, parlamentdəki tənqidi, fərqli çıxışları buna sübutdur. Bu sualın bircə cavabı var. Kimin əlində nə fakt varsa, ortaya qoysun, daha söz oyunu oynamasınlar".

❑ **Etibar SEYİDAĞA**

# Respublika Günü müxalifət eyni məkanda toplaşacaq

**Partiyaların əksəriyyəti Respublika Günü Məhəmməd Əmin Rəsulzadənin Novxanıdakı abidəsini ziyarət edəcək...**

**Qarşıdan 28 May - Respublika Günü gəlir. Hər il olduğu kimi bu il də Respublika günü dövlət səviyyəsində qeyd olunacaq. Bəs müxalifət partiyaları bu günlə bağlı hər hansı tədbir keçirməyi planlaşdırırmı?**

"Yeni Müsavat"a danışan **KXCP sədrinin müavini Xəzər Teyyublu** bildirib ki, bu il də partiya olaraq öz ənənələrinə sadiq qalacaqlar: "Biz bu günlə bağlı hər il olduğu kimi Novxanıda anım tədbiri keçirəcəyik. Eyni zamanda Məhəmməd Əmin Rəsulzadənin yaxın qohumlarının məzarlarını da ziyarət edəcəyik. Bundan başqa 28 may tarixində Əbülfəz Elçibəyin də məzarını ziyarət edəcəyik. Ziyarətlərimizdən sonra isə partiyanın qərargahında tədbirlərimiz davam edəcək. Bununla bağlı da tədbirlər planımız var. Ziyarətin hələ ki, saatını dəqiqləşdirməmişik".

**ADP sədrinin müavini Həsrət Rüstəmov** söyləyib ki, partiyanın idarə heyətinin keçiriləcək iclasında bu məsələ müzakirə olunub, konkret qərarlar qəbul olunacaq:

"Cümhuriyyətin ildönümlərinə heç zaman biganə qalmamışıq. Bu, siyasi partiya olaraq bizim tarixi borcumuzdur. Bir neçə il İstiqlal abidəsinin önünə gedib, orada şəhidlərimizi yad etmişik. Eyni zamanda Şəhidlər Xiyabanını ziyarət edib, konfranslar, tədbirlər keçirmişik. Əksər hallarda isə Məhəmməd Əmin Rəsulzadənin Novxanıdakı məzarını ziyarət edib, cümhuriyyət qurucularını yad edirik. Bu il də çox güman ki, belə olacaq. 28 May unudulası tarix deyil. Çalışırıq ki, insanlarımızda bu günə normal münasibətin formalaşdırılmasında biz də iştirak edək".





**Ümid Partiyasının sədr müavini Tamilla Qulami** bildirib ki, onlar Respublika günü ilə bağlı mayın 27-də tədbir keçirəcəklər: "27 mayda partiyada Respublika Gününə həsr olunmuş dəyirmi masamız olacaq. Mayın 28-də isə partiya gəncləri ilə birlikdə Məhəmməd Əmin Rəsulzadənin Novxanıdakı abidəsini ziyarət edəcəyik".

**Vətəndaş Həmrəyliyi Partiyasının Mərkəzi İcra Aparatının sədri Samir Əsədli** qəzetimizə bildirib ki, onlar Məhəmməd Əmin Rəsulzadənin Bakıdakı yeganə abidəsini də ziyarət edəcəklər: "İlk olaraq Məhəmməd Əmin Rəsulzadənin Novxanıdakı abidəsini ziyarət etməyi düşünürük. Ancaq partiya sədrimiz hazırda ölkədə yoxdur. Ona görə də ziyarətimizi ya digər müxalifət partiyaları ilə birlikdə, ya da partiya olaraq edəcəyik. Ötən il biz Rəsulzadənin Bakı şəhərindəki, keçmiş Şin zavodunun həyətində olan abidəsini ziyarət etmişdik. Qeyd edim ki, həmin abidəni bizim partiyanın üzvü Telman Ələkbərov qoyub. Ələkbərov həmin zavodun direktoru olub. Bu, Rəsulzadənin Azərbaycanda qoyulan ilk, Bakıda isə yeganə abidəsidir. Çox güman ki, partiya olaraq bu il də həmin abidəni ziyarət edəcəyik".

**Vətəndaş İnkişaf Partiyasının sədri Əli Əliyev** isə bildirib ki, həmin günü partiyalarının qurultayını keçirəcəklər: "Lakin bundan başqa abidəni də ziyarət etməyi düşünürük. Bununla bağlı olaraq hazırda əməkdaşlıq etdiyimiz format daxilində müzakirələr aparırıq. 28 May günü saat 14:00-da müttəfiq partiyalar Novxanıda tədbir keçirəcəklər. Qurultayın arasında zaman olarsa, həmin tədbirdə şəxsən iştirak etmək istəyirəm. Qurultayı bu tarixə salmağımız da məhz, 28 May günü ilə bağlıdır. Son illərdə isə ənənəvi olaraq müttəfiq partiyalarda bu günü Novxanıda, Məhəmməd Əmin Rəsulzadənin məzarını ziyarət etməklə qeyd etmişik".

**AĞ partiya sədri Tural Abbaslı** da məlumat verib ki, bir qrup müxalifət partiyaları ilə Novxanıdakı abidəni ziyarət edəcəklər: "Həmin gün qurucu lider M.Ə.Rəsulzadənin Novxanıdakı abidəsini ziyarət edəcəyik. Hələlik əsas planımız budur. Ancaq ola bilsin ki, bundan başqa da hansısa digər tədbirlər də təşkil edə bilərik. Yəni bunlar barədə müzakirələrimiz olacaq".

**Müsavat Partiyası isə 28 May günü ilə bağlı mitinq qərarı verib. Belə ki, partiya funksionerlərinin sosial şəbəkələrdə yaydıqları məlumata görə, partiya mayın 28-də saat 11:30-da Respublika Günü münasibətilə Novxanıda bayram mitinqi keçirmək barədə qərar qəbul edib. Müsavat başqanı Arif Hacılı hər kəsi mitinqdə fəal iştirak etməyə çağıraraq, bu barədə rayon təşkilatlarının sədrlərinə tapşırıqlar verib.**

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 109 (6723) 23 may 2017

# Avropaya vizasız gediş nə zaman reallaşacaq?

**Azərbaycan vətəndaşlarının Avropa İttifaqı (Aİ) ölkələrinə vizasız gediş-gəlişləri üçün başlanan müzakirələr davam edir. Xüsusilə, qonşu Gürcüstana bu güzəştin tətbiqi Azərbaycan məsələsini gündəmdən salmır.**

## Elxan Şahinoğlu: "Azərbaycan vətəndaşının Gürcüstan vətəndaşından nəyi əskikdir?"



Gürcüstan vətəndaşlarına Avropa İttifaqı ölkələrinə vizasız gediş-gəlişlərinə icazə verilməsindən sonra bizim də bu imkana sahib olacağımıza ümid artıb. Rəsmi Bakının qonşu ölkəyə tətbiq edilən güzəştdən yararlanması və bu istiqamətdə danışıqlarını intensivləşdirməsinin vacibliyi vurğulanır. Azərbaycan hökuməti səviyyəsində artıq bununla bağlı mövqelərə də rast gəlirik. Son olaraq, **xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev** Azərbaycan vətəndaşlarının Avropa İttifaqı ölkələrinə vizasız səfəri məsələsinə də toxunub: "Azərbaycan vətəndaşlarının Avropaya sərbəst gedib-gəlməsi üçün viza məsələləri bir qədər yüngülləşdirilib. Eyni zamanda, bizim imzaladığımız sazişlər, həm vizanın sadələşdirilməsi, həm də readmissiya sazişləri həyata keçirilir. Ola bilsin ki, bu məsələ ilə bağlı monitorinq komitəsində görüş olacaq və onlar bu məsələyə bir daha baxacaqlar. Əgər hər iki tərəf öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirirsə, ola bilsin ki, gələcəkdə bu məsələ müzakirə olunsun. Azərbaycan vətəndaşlarının Avropaya vizasız gediş-gəlişi ilə bağlı sazişin imzalanmasına gəlincə, indi bu barədə danışmaq bir qədər tezdir".

**Politoloq Elxan Şahinoğlu** bu istiqamətdə Azərbaycan-Aİ arasında danışıqların gedişinin qaneedici olmadığını düşünür: "Təəssüf ki, Azərbaycanla Avropa İttifaqı arasında strateji sazişin imzalanması üzrə danışıqlar ləng gedir. Bunu xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyevin son açıqlamasından da anlamaq olar. O, bir tərəfdən deyir ki, Aİ ilə Azərbaycan arasında siyasi, iqtisadi, elm, təhsil və digər sahələri əhatə edən yeni sazişin imzalanması ilə bağlı danışıqlar başlanıb. Digər tərəfdən isə deyir ki, əgər hər iki tərəf öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirsə, ola bilsin ki, gələcəkdə bu məsələ müzakirə olunsun. Nazir müavini fikrini bu sözlərlə yekunlaşdırır ki, Azərbaycan vətəndaşlarının Avropaya vizasız gediş-gəlişi ilə bağlı sazişin imzalanmasına gəlincə, indi bu barədə danışmaq bir qədər tezdir. Bu açıqlamadan gəlinən qənaət odur ki, Azərbaycan vətəndaşları Avropa İttifaqı ölkələrinə vizasız gediş-gəlişi hələ çox gözləməli olacaqlar. Gürcüstan arasında siyasi, iqtisadi islahatların dərinləşdirilməsi və qanunvericiliyin Avropa standartlarına yaxınlaşdırılması istiqamətində üzərinə götürdüyü öhdəlikləri sürətlə yerinə yetirir. Məhz bunun nəticəsində Brüssel Tiflisi mükafatlandırmağa qərar verdi, Gürcüstan vətəndaşları Avropaya sərbəst giriş imkanları yaratdı. Niyə Gürcüstan vətəndaşları Avropaya sərbəst giriş imkanı əldə edərkən, Azərbaycan vətəndaşları günlərlə səfirliklərin növbəsində dayanmalı, üstəlik sənədlərin hazırlanmasına daha çox vaxt sərf etməlidirlər? Azərbaycan vətəndaşının Gürcüstan vətəndaşından nəyi əskikdir? Bu haqda məmurlarımız ciddi düşünməlidirlər. Fikrimcə, biz hələ Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanması planlaşdırılan sazişin ilkin mərhələsindəyik. Tərəflərin qarşılıqlı tələb və istəkləri var, bunları uzlaşdırmaq xeyli vaxt aparacaq. Ayrıca, Azərbaycanın nə zaman Ümumdünya Ticarət Təşkilatına üzv olacağı da bəlli deyil. Bu isə Azərbaycanla Avropa İttifaqı arasında yaxınlaşmanın əsas şərtlərindən biridir. Maraqlıdır ki, Mahmud Məmmədquliyev Ümumdünya Ticarət Təşkilatı ilə danışıqlara da cavabdehdir. Ancaq onun səlahiyyətində olduğu sahələrdə irəliləyiş yoxdur. Doğrudur, Məmmədquliyev ona verilən təlimat əsasında fəaliyyət göstərir, ancaq məndə belə təəssürat yaranır ki, nazir müavini bu danışıqların aparılmasında özü də həvəssizdir. Halbuki, Azərbaycan prezidenti ilin əvvəlində Brüsselə səfəri zamanı danışıqların sürətləndirilməsi təlimatını vermişdi. Görünür, hakimiyyət strukturlarında Avropa İttifaqı ilə inteqrasiyanın sürətləndirilməsinin əngəllənməsində maraqlı olanlar az deyil".

❑ **Cavanşir ABBASLI**

# İŞİD təhlükəsi Azərbaycan və dünya üzərindən sovuşdumu?

## İlham İsmayıl: "İŞİD-ın sonu yaxınlaşmağına yaxınlaşır, amma..."

**İŞİD təhlükəsinin dünyanın üzərindən çəkildiyi müşahidə edilir. Terror təşkilatının adı belə hallanmır. Əgər ötən ayın sonlarına qədər Azərbaycan və dünyanın əsas problemlərindən biri İŞİD idisə, müzakirə mövzularının əsasını terror qruplaşması təşkil edirdisə, indi bunların heç biri yoxdur. Bu da artıq İŞİD-ın qınına çəkilməsi anlamına gəlir.**



Ekspertlər indiki vəziyyətin terror təşkilatına sərf etdiyini düşünürlər. Bununla onun güc topladığı, qarşıdakı zamanlarda yenidən dünyanı ağuşuna alacaq terror təhlükələri yarada biləcəkləri vurğulanır. Mövcud vəziyyətdən istifadə edib, tamamilə İŞİD-i məhv etməyin zamanının yetişdiyi də qeyd olunur.

**Sabiq MTN polkovniki, təhlükəsizlik üzrə ekspert İlham İsmayıl** İŞİD terrorunda getdikcə səngimələrin olduğunu vurğuladı: "Terror səngimələrinin bir sıra səbəbləri var. Bunu deməzdən əvvəl onu bildirim ki, terror təhlükələri hələ tam aradan qalxmayıb. Dünyada, Yaxın Şərqdə, konkret olaraq, Suriya və İraqda gedən proseslər elə cərəyan edir ki, dövlətlər arasındakı münasibətlərdə gözləmə mövqeyi açıq görünür. Xüsusilə, Rusiya, İran və Amerika üçbucağında gözləmə mövqeyi var. Danışıqlar prosesi gedir. Bu proseslər gedəndə hansısa dövlət, yaxud konkret hansısa dairələr burada İŞİD-dan istifadə edir. Yəni İŞİD-ın yüksəlişi və enişi terror təşkilatından asılı deyil. Dünyada, konkret Suriya ətrafında gedən proseslərdən asılı olur. Həmin təhlükəni İŞİD yaradıb ki, indiyə qədər bu terror təşkilatı gəlib-getmiş ən təhlükəlisidir - baxmayaraq ki, Avropa dövlətlərində də terror aktları həyata keçiriblər, amma deyərdim ki, İŞİD-ın əsas hədəfi müsəlman ölkələridir. Bu baxımdan Azərbaycanın da yeri gələndə hədəf ola biləcəyini düşünmək olar. Zaman-zaman hədələyib, təhdid ediblər. Silah keçirə bilməyəndə, başqa yollardan istifadə etmək imkanları olmayanda, yeri gələndə maşınları insanların üstünə sürmək tapşırıqları da veriblər. Azərbaycanda konkret bunların hələ əməlləri olmayıb. Amma indiki vaxtda İŞİD-ın aradan qaldırıldığını demək mümkün deyil. İŞİD-ın sonu yaxınlaşmağına yaxınlaşır, amma sürətlə yaxınlaşası deyil. İstənilən halda biz ayıq-sayıq olmalıyıq".

**Təhlükəsizlik eksperti İŞİD-a hərəkət etmək üçün maliyyə və silah lazım olduğunu söylədi:** "Maliyə və silah olmadığı zaman bu məsələləri həyata keçirmək ideoloji amillə mümkün deyil. Kimsə fikirləşə bilər ki, özünü Allah yolunda şəhid edəcək, amma bunlar belə məsələlərdə keçmir. Bu amilin də sözsüz ki, təsiri var. Amma hərəkət etmək üçün maliyyə və silahın olması çox vacibdir. Bunun üçün də dövlətlərin, varlı şəxslərin köməyinə ehtiyac var. Hamı bilir ki, Səudiyyə Ərəbistanından ilk vaxtlarda 40 zəngin ailə İŞİD-ın maliyyələşdirilməsində iştirak edib. Şərqi Avropa ölkələrindən də ora xeyli sayda silahlar axışdı. Neftayırma zavodlarını ələ keçirdikdən sonra nefti ucuz satıb xeyli maliyyə əldə etdilər. İndi bu proseslər aşağıya doğru gedir. Bu zaman isə, insanları təşkilata cəlb etmək xeyli çətinləşir. Azərbaycandan ora getmək məsələsi də çətinləşir. İnsanlarda tədricən İŞİD-ın perspektivinin olmaması fikri yaranır. Mosul və digər yerlərdə İŞİD-ın geri çəkilməsi bu fikirlərin oyanmasında mühüm rol oynayır. İŞİD-ın özünə bu vəziyyət sərf etməsə də, başqa yol da yoxdur. Müəyyən olunan qeyri-müəyyənlik deyilən anlayış var, bu qeyri-müəyyənlik müəyyən olduğu zaman İŞİD yenə də təsirlərini göstərməyə çalışacaq. Suriyada hələ proseslər tam bitməyib. Bu ölkənin gələcəyi həll olunmayana qədər İŞİD burada qalacaq. Dövlətlər İŞİD-ın qolları ilə bəzi yerlərdə hərəkət edirlər. Özlərinin də sözsüz ki, hərəkətləri var, var-dövlət qazanmaq istəyirlər, amma böyük dövlətlərdən istər-istəməz asılıdırlar".

❑ **Cavanşir ABBASLI**

# Niyə Türkiyə yox, Səudiyyə Ərəbistanı?..



**Hüseynbala SƏLİMOV**

**Bakıda keçirilən İslam oyunları, qonşu İrandakı prezident seçkiləri və D.Trampın özünün ilk xarici səfərinə Səudiyyə Ərəbistanından başlaması ən azı bir neçə günlüyə diqqəti müsəlman dünyasına çəkdi.**

Amma bu hadisələrin biri-birilə elə bir xüsusi əlaqəsi yoxdur və üstəlik, onlar eyni siyasi çəkiyə və məzmuna da malik deyillər.

Bəli, nə qədər maraqlı, hətta möhtəşəm olsa da, İslam oyunları son nəticədə yenə də bir idman tədbiridir və nə qədər "İdman da siyasətdir" desək də, nəticə etibarilə hər şeyin öz çərçivəsi və siyasi məzmunu var.

İrandakı seçki də fövqəl hadisə deyildi, siyasi təqvim üzrə növbəti prezident seçkisi keçirildi və əvvəlcədən proqnozlaşdırıldığı kimi indiki prezident H.Ruhani daha bir müddətə postunda qaldı...

Deməli, qalır, bircə D.Trampın Səudiyyə Ərəbistanına və Yaxın Şərqə səfəri. Ən azı ona görə ki, bir neçə gündür ki, Rusiya mediası "D.Tramp özü üçün bu cür təhlükəli vaxtda ABŞ-ı tərk etməməli idi!" deyərək lap əməlli-başlı hay-küy salıb...

D.Trampın siyasi vəziyyəti ilə bağlı burada əlavə söz deməyəcəm, ona görə ki, bu haqda çox yazılır, çox danışılır, -baxanda özüm də bu xüsusda heç də az yazmamışam.

Səudiyyə səfərində Trampa hətta bu ölkənin ordeni verildi. Bunu çox şeylə əlaqələndirmək olardı. Ola bilsin, bu, Trampın Səudiyyəyə olan diqqətinə cavab idi. Və yaxud da B.Obamadan fərqli olaraq D.Trampın "ərəb baharları" strategiyasına bağlı olmamasının nəticəsidir. Ya da ola bilsin ki, diplomatik protokolda nəzərdə tutulmuş adicə bir siyasi jest idi bu - çox ölkələr yüksək qonaqları orden və medallarla təltif etməyi sevirlər. Hər halda, görünür ki, Səudiyyə monarxı ilə qılınc rəqsi oynayan Tramp ərəb monarxlarının ürəklərinə daha yaxındır.

Amma məni bir sual düşündürdü? Niyə Tramp ilk səfərini daha demokratik və ABŞ-la daha ciddi siyasi-hərbi bağlılığı olan Türkiyəyə yox, Səudiyyə Ərəbistanına etdi? Axı Türkiyə də müsəlman dünyasının nüvəsi olmağa can atır! Üstəlik, islam dünyasında demokratik və dünyəvi dövlət olan Türkiyə regional geosiyasi ağırlıq mərkəzi kimi daha yararlı olardı.

Amma vurğu Səudiyyə Ərəbistanına edildi. Görünür, bu da daha çox geosiyasi orientirlərlə bağlıdır. Tramp da özünün əvvəlki siyasi sələfləri kimi bölgədəki geosiyasi arxitekturanı İrana qarşı çevirməyə çalışır, bu rol üçünsə yararlısı məhz Səudiyyə Ərəbistanıdır.

Bu ölkə Yaxın Şərqdə İranı əsas rəqibi hesab edir, elə İran da bölgə üzrə dini təsirə malik olmaqda daha çox sünni Səudiyyə Ərəbistanı ilə qovğa aparır.

Türkiyə bu rola o qədər də yararlı deyil. Ona görə ki, o, İranla münasibətlərində gərginlik yaratmamağa cəhd edir. Bu da daha çox kürd problemilə bağlıdır - nə qədər qəribə olsa da, biri-birindən siyasi və geosiyasi orientirlər baxımından uzaq olan İran və Türkiyə bu nöqtədə təmas qura bilir.

Həm də deyilə bilər ki, Türkiyənin prezidenti də bu yaxınlarda ABŞ-a səfər etmişdi. Razıyıq. Üstəlik, onu da deyək ki, R.T.Ərdoğan bu ölkədə çox yüksək səviyyədə qarşılandı. Düzdür, deyəsən, sonuncunu - Türkiyə prezidentini ən çox narahat edən iki məsələdə, F.Gülən və ABŞ-ın Suriya içrə əməkdaşlıq etdiyi kürd yaraqlıları ilə bağlı məsələlərdə anlaşma alınmadı, amma bu, səfərin diplomatik tonunu aşağı salmır...

Təbii, istərdik ki, Tramp Yaxın Şərqə münasibətdə siyasi, demokratik orientirləri əsas götürsün, bölgənin geosiyasi arxitekturasını Türkiyənin ətrafında qurmağa çalışsın. Amma özümüz də etiraf edirik ki, Türkiyə bu bölgədəki, ümumiyyətlə, müsəlman dünyasındakı mənzərədə daha çox istisna çalardır.

Həqiqətən də, monarxiyalardan və ən yaxşı halda da sərt avtoritar rejimlərdən ibarət olan düşərgəyə Türkiyə necə liderlik edə bilər? Düzdür, Türkiyə də dövlətlərin iç sahmanına qarışmağı sevmir. Amma bütün hallarda, təsir təsirdir-başqa müsəlman ölkələrinin insanları da Türkiyənin siyasi sistemindən nəsə götürməyə çalışır...

Səudiyyə Ərəbistanı isə neft, ərəb ölkələri və bir də "yağlı" hərbi-iqtisadi sazişlər, müqavilələr deməkdir. Təsadüfi deyil ki, Tramp bu ölkə ilə 100 milyard dollarlıq hərbi saziş imzaladı. Cəmi müqavilələrin həcmi isə 280 milyard dollar tərtibində idi...

**Müqavilələr prinsipcə, Trampın ABŞ daxilindəki mövqelərini möhkəmləndirə bilər. Axı böyük sazişlər pul və iş yerləri deməkdir! Amma tələsməyək, "tələsən təndirə düşər" deyiblər...**

# Xainlərin sirki



Zamin HACI
zaminhaci@gmail.com

**"Satqın kimə deyilir?**
**Elə yalnız cəbhədə əlini qaldırana?**
**Bəli, yalnız cəbhədə əlini qaldırana!**
**Cahan - vuruş meydanı, biz əbədi cəbhədə...**
**Göz-gözədir cəbhədə, qeyrətli də, q...ə də".**

*(Xəlil Rza, "Milli satqın" şeirindən)*

**Hər şey eyni ssenari ilə getməkdədir. Bu kinonu bir dəfə gördüyümüzdən alpinistin dağa çıxa bilməyib, həlak olacağını da dəqiq bilirik. Alpinist söhbəti məşhur pritçadır. İki dost oturub filmə baxırlar, orda alpinist dağa çıxır. Biri deyir, zirvəni fəth edəcək, o biri deyir, yıxılacaq. Mərcləşirlər. Alpinist zirvəyə az qalmış yıxılıb, ölür. Uduzan pulu vermək istəyir. Udan almır, deyir, mərc vicdanla olmalıdır, mən isə bu filmə baxmışdım. Uduzan deyir, pulu götür, mən də baxmışdım. Udan heyrətlənir: "Finalı bilirdinsə, bəs niyə mərcə girmişdin?". Uduzan deyir: "Ümid edirdim, bəlkə bu dəfə çıxdı".**

Kafkanın qəddarcasına təsvir elədiyi o cəza mexanizmi yenə də öz işindədir. Səni, sənin yaxınlarını, uzaqlarını - hər kəsi bir gündə "vətən xaini" elan edib öldürə bilərlər. Heç nə edə bilməzsən. Stalinin xiffətini çəkənlər üçün əsl cin-şəyatin balıdır. Buyurun, rəqs edin. "Troyka" sizin ardınızca gələnə qədər oynayın. Bu, kostyum adı deyil, bədnam sovet məhkəməsinin adıdır. Əslində bunun adı formal olaraq məhkəmə idi. Vəkil, apelyasiya-zad olmurdu. 3 nəfər hökm çıxarırdı, ya Sibirə, ya qəbirə gedirdin. Həmin üçlük yerli partiya komitəsi (oxu: YAP özəyinin sədri), prokuror və NKVD (polis və xüsusi xidmətin vəhdətindən ibarət qurum idi) nəfərindən düzəlirdi. Heç bir protokol, yazı-pozu da olmurdu. Qərarlar şifahi çıxarılırdı. Srağagün mən facebookda belə şifahi qərar oxudum: "Xainlər öldürülməlidir, bunun sorğu-sualı olmamalıdır".

Əlbəttə. Özünə hörmət edən vətənin xaini mütləq olmalıdır. Kül o vətənin başına ki, ona kimsə xəyanət etmək istəmir. Bir növ, yelbeyin aşiqlərin əhvalatı kimi: "qısqanırsa, sevir". 90-cı illərin ortalarında vətənin az qala yarısını xain çıxarıb zindana doldurmuşdular. O vaxt bu maddənin cinayət məcəlləsində nömrəsi 57 idi. İnsanlar 57 rəqəmindən necə qorxurdusa, mən mediaya açılmayan qapıları bir neçə dəfə bu cür açmışdım: "Siz KİV haqda qanunun 57-ci maddəsini pozursunuz". Heç düşünən olmurdu ki, KİV haqda qanun cəmi 53 maddədir.

Sonra pullar gəldi, xainlər azaldı. Xəyanət bazarında tələb və təklif əyrisi ölçülərkən neft gəlirləri amili mütləq nəzərə alınmalıdır. Yenə kinodan sitat gətirsək, "acından belə eləyirlər". Maddənin nömrəsi də dəyişdi, 274 oldu. İndi bu, o qədər tükürpədici rəqəm kimi görünmür. Dərs təzə başlayıb axı. Sonra əzbərləyəcəyik. Öyrəşəcəyik. Maddənin vətən sözünü də çıxarıb dövlət eləyiblər. Dövlətə xəyanət. Hə, axı vətən bir az poetik anlayışdır. Şairlər-zadlar üçündür. Dövlət daha kəskin, administrativ səslənir.

Şairlər demişkən, sovet hökuməti Yazıçılar Birliyi tipli yaltaq qurumları 1934-cü ildə yaratmağa başlamışdı. Kütləvi repressiyadan 2-3 il qabaq bunun zavodunu düzəltmək lazım idi. Yazıçılara ənam, əppək, kökə verib oyuncaq düzəltmək, sonra elə özlərini qəssabxana bıçağı altına itələmək üçün təşkilati iş vacib idi. Köhnənin qəssabı, oğrusu İosif Cuqaşvili belə ölüm mexanizmləri düzəltməyin sirlərini yaxşı öyrənmişdi. Qətllər səngiyəndə, artıq 50-ci illərin ortalarında SSRİ Yazıçılar Birliyinin sədri Fadeyev başına güllə sıxıb intihar eləmişdi. Dərd ondadır ki, bizimkilər arasında "fadeyevlər", "mayakovskilər" də yoxdur. Qəssabxanamız da qısırdır. Maketdir. Axan da qan deyil, sanki qanın şəklidir.

Axı tarix həmişə faciə şəklində təkrarlanmır. Bəzən o, tragikomediya olur, bəzən isə hətta sirk.

**Sözgəlişi, Amerikada 19-cu əsrdən qalma məşhur bir sirki srağagün bağladılar. Qazanc yox imiş. Üstəlik, heyvansevərlər məhkəmə iddiaları ilə bezdiribmişlər. Mən sirklərdən gələn spesifik heyvan qoxusunu - bunu heyvanların qorxusunun iyi adlandırıram - sevməsəm də həmin xəbəri kədərlə oxudum. Gör neçə kloun ac qalacaq...**

# Moskvanın "bir gülləyə iki dovşan" siyasəti



# Azərbaycanla bağlı gizli plan - müharibə başlasa...

## Qarabağ ətrafında gərginliyin artması ən çox kimə əl verir, Rusiyanın konfliktə dair "Yol xəritəsi"ndə nə var? Ekspertdən ilginc iddia: "Müharibə Rusiya hərbi bazasının Azərbaycana qayıtması ilə bitə bilər..."

**Qarabağ münaqişəsi zonasında gərginlik az qala, hər gün artmaqdadır. Erməni tərəfinin ara verməyən təxribatları təbii ki, Azərbaycan Silahlı Qüvvələrini adekvat addımlar atmağa vadar edir - hansı ki, mayın 15-də bir daha gördük: aviasiyamız üçün təhlükə kəsb edən və məqsədli şəkildə ön cəbhəyə çıxarılan, düşmənə məxsus "OSA" zenit-raket kompleksi hərbçi heyəti ilə birgə məhv edildi.**

İşğalçı qüvvələrin torpaqlarımızda özünü belə arxayın aparması şübhəsiz ki, ilk növbədə onun öz havadarlarına güvənməsi ilə bağlıdır. Söhbət ən əvvəl Rusiyadan gedir. Bəzi ehtimallara görə, son vaxtlar rəsmi İrəvanın sülh prosesindən birdəfəlik imtina edərək, daha radikal mövqe sərgiləməyə başlaması, faktiki, Ermənistan hakimiyyətinə daşnak ideologiyasının hakim kəsilməsi, paralel surətdə cəbhə xəttində düşmən təxribatlarının çoxalması boşuna deyil, məqsədli xarakter daşıyır və havadar amili ilə sıx bağlıdır.

***

*Bu xüsusda ekspert çevrələrində müzakirə predmeti olan mövzulardan biri də Ermənistanın 1 nömrəli müttəfiqi Rusiyanın yeni və iri hərbi toqquşmada nə dərəcədə maraqlı olub-olmaması ətrafındadır. Yəni Qarabağda yeni müharibə Rusiyaya lazımdırmı?*

Suala hələ ki yekdil baxış yoxdur. Hətta bununla bağlı bir-birinə diametral zidd yanaşmalar mövcuddur. Şübhəsiz ki, ona dolğun cavab vermək üçün başqa bir suala cavab vermək lazım gəlir: belə bir müharibə Rusiyaya nə verə bilər, onun itkiləri nə olacaq?

Sözsüz ki, hər iki suala cavab daha çox hərb variantında Rusiyanın hansı mövqe tutacağından, satellit Ermənistana hərbi kömək edib-etməyəcəyindən, lap dəqiqi, işğalçı Ermənistanla birgə yaradılmış ortaq hərbi qruplaşmanın Qarabağ istiqamətinə cəlb edilib-edilməyəcindən birbaşa asılı olacaq. Əksər analitiklər hesab edir ki, nə KTMT, nə də ortaq hərbi birləşmə hüquqi baxımdan Qarabağa görə cavabdehlik daşımır. Yəni hərbi əməliyyatlar konkret olaraq Ermənistan ərazisinə nüfuz etməyincə, bu - istisnadır.

Başqa yandan, Rusiyanın açıq və fəal şəkildə Ermənistan tərəfində çıxış eləməsi Azərbaycanın itirilməsi və münaqişəyə Türkiyənin də qoşulmaq *(Naxçıvan nahiyəsindən)* zorunda qalması ilə nəticələnə bilər. Bu da hazırda yüksəliş dövrü yaşayan Rusiya-Türkiyə münasibətlərinə ciddi zərbə olardı.

***

İstisna deyil ki, baş verən kritik proseslər fonunda Rusiya Türkiyəni də itirsin. Qardaş ölkə isə Moskva üçün təkcə Avropa və ABŞ-a qarşı bufer rolu oynamır, eyni zamanda böyük iqtisadi dividentlər deməkdir. 3 ildir davam edən sanksiyalardan sonra şimal qonşumuzun iqtisadi durumu isə kritikdir. Ölkə artıq özünün Ehtiyat Fondunu da xərcləyib qurtarmaq üzrədir.

Bura Moskvanın Yaxın Şərq (Suriya), Ukrayna böhranlarına cəlb olunmasından dolayı, üzləşdiyi əlavə problemləri, çətinlikləri də əlavə eləsək, o zaman Kremlin müharibədə - əlavə ciddi baş ağrısında yox, konfliktin həllində irəliləyişdə maraqlı olması zərurəti ortaya çıxar. Hərçənd, bu da yoxdur. Yaxud istək varsa belə, yəqin tərəflərdən biri - ya Azərbaycan, ya da Ermənistanın Rusiyanın "Yol xəritəsi"ni məqbul saymır.

Vaxt isə gedir. Bu da öz növbəsində artan müharibə riskləri deməkdir. Ola bilsin, Rusiya rəhbərliyinin son vaxtlar büruzə verən əsəbi tonu ən əvvəl bununla bağlıdır. Hər necə olmasa, bölgədə yeni müharibənin yaradacağı qarışıqlıqdan yüz faiz Moskvanın istifadə edəcəyinə əminlik yoxdur. İndi 90-cı illər deyil. İndi bölgədə Türkiyə, hətta NATO *(Gürcüstandakı baza timsalında)* var. Bu kimi mühüm gəlişmələri Kreml isteblişmenti ciddiyə almaya bilməz.

***

Beynəlxalq məsələlər üzrə rusiyalı ekspert Aleksandr Serebryakov da Cənubi Qafqazdakı durumu kritik hesab edir. Musavat.com-un məlumatına görə, politoloq Azərbaycan və Ermənistanın artıq atəşkəsə qarşılıqlı nəzarəti itirmək riski ilə üz-üzə olduğunu deyib.

"Üstəlik, Ermənistan beynəlxalq kursla bağlı öz mövqeyini hələ də tam müəyyən eləməyib və dünya oyunçularının maraqları arasında var-gəl edir. Azərbaycan isə öz üzərində getdikcə daha çox Türkiyənin təsirini hiss edir - hansı ki, son illər hərbi münaqişələrin eskalasiyasında həddən artıq fəaldır. Düşünmürəm ki, indi Rusiyaya öz sərhədlərində müharibə lazımdır: problemlər onsuz da həddən artıqdır, Moskvanın ABŞ-la münasibətləri isə indiyədək aydınlaşmayıb. Ancaq hər halda əgər müharibə başlasa, o zaman həqiqətən bütün əsaslar var deyək ki, onun bitməsi münaqişə zonasına Rusiya sülhməramlıları və ya beynəlxalq hərbi kontingentin yeridilməsi ilə bağlı olacaq", - deyə analitik əlavə edib.

***

Əslində rusiyalı ekspert bəlkə heç özü də bilmədən Moskvanın Qarabağla bağlı gizli hədəfini açıqlayıb. Bu da yeni silahlı toqquşmadan yararlanıb Rusiya hərbi kontingentinin Qarabağda yerləşdirmək planından ibarətdir.

Faktiki şəkildə, Rusiyanın Azərbaycana hərbi qayıdışı anlamı verən bu hədəflə bağlı zaman-zaman yazmışıq. Kreml çox istəyərdi ki, bu planı baş tutsun. Çünki o halda Qarabağla bağlı heç bir öhdəliyə boyun olmadan Azərbaycanla Ermənistan arasında müharibə ehtimalı minimuma enər *(Qarabağ probleminin tam həll olunub-olunmamsından asılı olmayaraq)*, ən əsası, NATO-nun ABŞ-ın bölgənin iki ölkəsində - Azərbaycan və Ermənistanda bərqərar olması uzun müddətə əngəllənərdi.

**Ola bilsin, elə buna görə Rusiya müharibədə maraqlı olsun - lakin sırf özünün nəzarətində olacaq bir müharibədə. Bu isə asan məsələ deyil. Çünki hərbə başlamaq asan, onu dayandırmaq isə həmişə çətin olub. Rusiya isə "bir güllə ilə iki dovşan vurmaq" istəyir. Vura biləcəkmi?**

❑ Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 109 (6723) 23 may 2017

**Xəbər verdiyimiz kimi, mayın 21-də Türkiyənin iqtidar partiyası olan Ədalət və İnkişaf Partiyasının (AK Partiya) 3-cü fövqəladə qurultayı keçirilib. Qurultayın nəticəsi olaraq cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan 998 günlük ayrılıqdan sonra yenidən qurucusu olduğu partiyanın rəhbərliyinə qayıdıb.**

# Prezident Ərdoğan niyə AK Partiyaya qayıtdı - fövqəladə qurultayın dərin hədəfləri...

## AK Partiyanın tarixi qurultayına qatılan Rauf Arifoğlu musavat.com-un oxucuları üçün gözlə görünməyən, pərdəarxası məqamlardan danışdı











Qurultayda Azərbaycan mediası adına iştirak edən **"Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu** musavat.com-un suallarını cavablandırıb:

***- Rauf bəy, AKP-nin qurultayında Azərbaycandan iştirak edən yeganə media rəhbərisiniz. İstənilən halda, bu cür məhdud təmsiliyyətin səbəbi maraqlıdır.***

- Mən AK Partiyanın qurultayında xarici media təmsilçisi statusunda iştirak etmişəm. Müraciətim və Türkiyənin iqtidar partiyasına yaxın dostlarımın diqqəti sayəsində akkreditasiyadan keçmişəm və gün ərzində də sıradan bir media mənsubu kimi çalışmışam. Öz saytlarımıza reportaj hazırlamışam, foto-video çəkilişlər etmişəm. Azərbaycanın dövlət televiziyasının Türkiyə bürosu da qurultayda idi; onları görə bilməsəm də, əminəm ki, mandatlarına uyğun şəkildə xəbər hazırlayıblar... Görəndə ki, Azərbaycanın müstəqil mediasını və hətta ictimaiyyətini mən təmsil edirəm, qərara gəldim ki, qurultayın bir çox fraqmentlərini sosial şəbəkələr vasitəsi ilə ölkəmin qəzet oxumayan kəsiminə də çatdırım. Bunun üçün facebookun canlı yayım funksiyasından istifadə etdim... Yəni qurultayda media fəhləsi kimi, düz 8 saat çalışdım, yazdım, çəkdim, musavat.com saytı, "Yeni Müsavat" qəzeti ilə dəfələrlə əlaqə saxladım. (İndi də sizə müsahibə verirəm.) Əməkdaşlarımıza da təşəkkür edirəm ki, bazar günü olmasına baxmayaraq, mənimlə bərabər çalışdılar.

***- Təhlükəsizlik tədbirləri hansı səviyyədə idi?***

- Çox yüksək səviyyədə. Bu da Türkiyənin beynəlxalq terror təşkilatlarının və onları yemləyən böyük dövlətlərin hədəfində olmasından qaynaqlanır.

***- Xəbərlərdən və sizin sayta yolladığınız videogörüntülərdən qələbəlik və coşğu görünür. Ankaranın küçələrində də eyni coşğunun olduğunu Türkiyə xəbərlərindən izləyirik. Siz bilavasitə nələri müşahidə etdiniz? Təəssüratlarınız necədir?***

- Türkiyə toplumu ümumiyyətlə həyəcanlı, enerjili və qoşulduğu hər bir prosesə, işə ürəyini verən toplumdur. Siyasətdə də belədir. Türkiyənin siyasi liderləri də, onların tərəfdarları da çox aktiv və hərəkətlidirlər. AK Partiya liderləri və elektoratı isə indiki anda, ölkə birincisidir.

Bu da təsadüfi deyil. Ölkə və partiya lideri Rəcəb Tayyib Ərdoğan elə bir kurs götürüb ki, bu kurs ancaq fəallıq, yorulmadan mücadilə, böyük savaşlarla müvəffəq ola bilər. Özlərinin də mətbuata açıqladıqlarına görə, hazırda AK Partiya və onun hökumətinin əksər üzvləri gündə 14 saat işləyirlər. Bu qurultaydan sonra, düşünürəm ki, onların işləri heç də azalmayacaq. 998 günlük ayrılıqdan sonra Ərdoğan yenidən AK Partiyanın rəhbərliyinə gətirildi. Bu da ancaq onunla mümkün oldu ki, bu ilin 16 aprelində keçirilən referendumu Ərdoğan uddu və Türkiyə Anayasasını dəyişdirdi. Türkiyənin əvvəlki konstitusiyasına görə, prezident seçilən şəxs tərəfsiz olmalı, heç bir partiyanı təmsil etməməli, əgər hansısa partiyada təmsil olunurdusa, ordan çıxmalı idi. Və fəaliyyətini partiyasız, bütün siyasi qruplara bərabər məsafədə göstərməli idi. 16 aprel referendumundan sonra konstitusiya dəyişdi. Bu dəyişikliyin məntiqi olaraq da AK Partiyanın üçüncü, növbədənkənar qurultayı meydana çıxdı. Nəticədə də 21 may 2017-ci ildə, bu cür böyük, möhtəşəm qurultay vasitəsilə Ərdoğan öz qurduğu partiyanın başına qayıtdı. Burada müxtəlif çıxışlar oldu. Lakin təbii ki, ən mühümü prezident Tayyib Ərdoğanın çıxışı idi. Mən 105 dəqiqəlik bu çıxışı diqqətlə və sonuna qədər dinlədim. Bu, bir yol xəritəsi idi. Prezident Ərdoğan nə istəyir, nələr planlaşdırır və Türkiyəni hara aparır?..

***- Hansı qənaətləriniz var? 998 günlük ayrılıqdan sonra AK Partiyanın rəhbərliyinə gələn Ərdoğanla birgə partiyanın həyatında nələr dəyişəcək fikrinizcə? Sualı bir az da genişləndirsək, ümumən Türkiyə siyasətinə, ölkə vətəndaşlarının həyatına nə kimi yeniliklər gətirəcək?***

- Ərdoğan ölkənin həyatında baş verəcək çox ciddi dəyişikliklərin anonsunu verdi. Aydın oldu ki, o, ilk növbədə Nazirlər Kabinetində çox ciddi islahatlar aparacaq, kadr dəyişiklikləri həyata keçirəcək. Həm də ən qısa zamanda. O, AK Partiyada da dəyişikliklərə artıq start verib. Partiyanın rəhbərliyinin yeni tərkibi buna sübutdur. Onun çıxışından aydın oldu ki, bundan əvvəlki siyasi tədbir, 16 aprel referendumu AK Partiya üçün böyük dərs olub. Belə ki, partiyanın yerli bölmələrinin, o cümlədən də partiyanın özünün texnoloqlarının bir növ qələbəyə arxayınlaşması səbəbindən referendumun nəticələri az qala tərsinə olacaqdı. Ərdoğan partiya qarşısında o məsələni qoydu ki, təşkilat aşağıdan yuxarıya, yenilənməlidir. Partiyasına və şəhərinə, təşkilatına yük olacaq başqanlar yox, partiyasının, şəhərinin, bölgəsinin yükünü daşıyacaq başqanlar - bələdiyyə, partiya başqanları, hökumət nümayəndələri - lazımdır. Ərdoğan uzun və strateji hədəfləri üçün yol arkadaşlarını yenidən saf-çürük etmək zorundadır. Buna məcburdur. Hamıya məlumdur ki, AK Parti və onun bütün strukturları, dolayısı ilə, Məclis və hökumət də, FETÖ-nun - əski iqtidar ortaqları olan "Gülən hərəkatı"nın ciddi təsirlərinə məruz qalıb və bu təsirlər hələ də davam edir. Bu səbəbdən də o, həm partiyasındakı, həm də hökumətindəki təmizləmələri bilavasitə və daha radikal şəkildə həyata keçirməlidir. Bunun üçün də həm hökumətə, həm də partiyaya nəzarət yetkilərini əlində cəmləşdirməlidir. Bu qurultaydan sonra, Türkiyə ictimaiyyəti çox yüksək rütbəli məmurların, çoxsaylı (AK Partiya mənsubu) millət vəkillərinin, FETÖ ünsürü kimi, ifşası və həbslərinin şahidi olacaqlar. Ərdoğan AK Partiyada, o cümlədən iqtidarda çox ciddi islahatların həyata keçirilməsinin vacibliyini də qəbul edib və bunları həyata keçirəcək. Ərdoğan öz partiyasının, nəhəng bir siyasət mexanizmi olan bir təşkilatın başına bilavasitə keçməklə, onu öz arxasına alaraq, 2019-cu ildə keçiriləcək və Türkiyə tarixində ilk dəfə olacaq prezidentlik sisteminə keçid seçkilərinə hazırlaşır. Bu, onun üçün, Türkiyə və region üçün çox önəmlidir. Ona görə də bu, Ərdoğana çox lazım idi ki, təşkilatının başına özü keçsin və onu gücləndirsin.

### "Təcrübə göstərdi ki, AK Partiya-Ərdoğan, Ərdoğan-AK Partiya tandemi daha yaxşı alınır"

***- Onsuz da partiya onu özünə lider bilirdi və məsafədən də - Prezident Sarayından da onu idarə edə bilərdi.***

- Təcrübə göstərdi ki, AK Partiya-Ərdoğan, Ərdoğan-AK Partiya tandemi daha yaxşı alınır. Bu partiyanın başında başqası olanda, AK Partiya taqətdən düşür, təsir gücü azalır. Hər kəs bu gerçəyi qəbul edir və bu gerçəyi də qəbul edərək, Ərdoğan da 998 günlük ayrılıqdan sonra öz partiyasının başına qayıtdı.

***- Ərdoğanın qurultaydakı çıxışından başqa nələri "oxumaq" mümkün oldu?***

- Ərdoğan çıxışında partiya qarşısında məsələ qoydu ki, artıq yüzdə 35-lərlə, yüzdə 45-lərlə iqtidar olmaq zamanı geridə qaldı. İndi artıq 50+1 göstəriciləri ilə iqtidar olmaq zamanıdır. Bu da olduqca çətin bir kursdur. Ərdoğan Türkiyə siyasətində məğlubedilməzlik fenomeninə çevrilib. Məhz bu səbəbdən də onun düşmənlərinin, bədxahlarının sayları və gücləri artıb. Daha doğrusu, Türkiyənin və Ərdoğanın güclü, dünya çaplı düşmənləri özlərini açığa çıxartmağa məcbur qalıblar. Çünki o, ölkə içindəki bütün siyasi rəqiblərini darmadağın edib, hərbi-silahlı və dövlət içindəki gizli düşmənlərini əzib, PKK kimi terror təşkilatlarına və onların siyasətdəki uzantılarına acımadan zərbələr endirir... Osmanlı varisi indiki Türkiyənin başında olan hər hansı bir lider - soyadı Ərdoğan olmasa da - daha əvvəldən məhz bu cür davransa, Avropa, xristian dünyası ona qarşı birləşərdi. Necə ki, Tayyib Ərdoğana qarşı birləşib...

***- Bu halda, dövlətin başında olmaq tam müdafiəni təmin etmir ki? AKP ilə bu cür bağlanmaq nəyi dəyişir ki?***

- Məhz belə bir məqamda Ərdoğana milyonlarla üzvü olan və bütün Türkiyədə struktura malik AK Partiya çox lazımdır. Çünki o, başa düşür ki, nə qədər ki, Türkiyə xalqı onu dəstəkləyir, hətta ordunu ona qarşı döndərsələr də (15 iyul 2016-dakı kimi), iqtidardan düşürə bilməzlər. Ərdoğanın iqtidarının canı Türkiyə xalqının içindədir. AK Partiyaya da o "can"ın yatmayan keşikçisi rolu biçildi. Son referendumda AK Partiya bir balaca mürgülədi, "can" əldən getmişdi az qalsın. Bundan sonra AK Partiyaya yatmaq yoxdu... Ərdoğan məhz partiyalılara xitabən dedi ki, iletişimin, əlaqənin ən yüksək formalarının, modellərinin çıxmasına baxmayaraq, yalnız buna arxayın olmaq olmaz. Hər bir ailəyə, şəxsə qucaq açaraq, qapı-qapı gəzərək, onların dərdini dinləmək, problemlərinə çarə axtarmaq, xalqla qucaqlaşmaq lazımdır. İnsani münasibətlər hər təbliğatdan üstündür, dedi. Bundan sonra AK Partiya və prezident Ərdoğanın daha çox xalqçı olacağı, xalqa yönəlik siyasət aparacağı gözləniləndir. Məhz öz çıxışının iqtisadi bölümündə də o, xalqa yönəlik həyata keçirəcəyi islahatların və xalqın vəziyyətinin daha yaxşı olacağı ilə bağlı müjdələrin də anonslarını vermiş oldu.

### "Rəcəb Tayyib Ərdoğan iqtidarının canı xalqdadır, AK Parti o canın keşikçisi təyin olundu..."

***- Türkiyə lideri tənqid etməyi sevir. Bu dəfə də etdimi?***

- Əlbəttə. Ərdoğanın sözdən üstün silahı yoxdur, onu da yaxşı işlədir... O, öz çıxışında Avropanın bir çox addımlarını kəskin tənqid elədi. Eyni zamanda FETÖ terror hörgütünü, ana müxalifət partiyasını, eləcə də Türkiyənin savaşdığı silahlı terror təşkilatlarının hər birini ayrı-ayrılıqda tənqid atəşinə tutdu.

***- Bizə aid nəsə dedimi? Azərbaycanın və azərbaycanlıların da ondan, daha doğrusu, Türkiyədən böyük gözləntiləri var...***

- Ümumi halda danışdı. O dedi ki, biz təkcə özümüzü yox, dünyanın dörd bir yanında gözünü bizə dikən qardaşlarımızı da düşünməliyik. Böyük ehtimalla o, dış türklər və müsəlmanlar mövzusunda danışaraq, qərarını elan edirdi. Dedi ki, biz onların da gözləntilərini doğrultmalı, xarici siyasətdə də mühüm dəyişikliklərə getməliyik. "Gözünü bizə dikən, sevən hər kəsə qucaq açmalıyıq". Hesab edirəm ki, bu mesajdan bizə də pay düşür.

***- Sayta yolladığınız foto və videolardan yerli, xarici jurnalistlərin qurultayı işıqlandırmaq üçün necə operativ, gərgin çalışdığı hiss olunur. Qurultayda jurnalistlər üçün necə iş şəraiti yaradılıb?***

- Mən salonun media bölümündən qurultayı izlədim. Əsasən yerli, amma həm də xarici media nümayəndələrinin iş prosesinin şahidi oldum. Hər şey yaxşı təşkil olunmuşdu. Yetkililər hər sözümüzə, jestimizə çox həssaslıqla, dərhal reaksiya verirdilər. Ona görə də belə ortamda çalışmaq gözəl idi. Xüsusən televiziyaçıların canlı yayın rejimində necə işlədiyini bir daha görmək mənim üçün maraqlı idi. Media zəhmətkeşləri böyük, hörmət olunacaq bir əməyin sahibləridilər.

Onlar olmasa, dünyaya heç bir liderin səsi sürətli və obyektiv çatdırılmaz, mesajı, çabası indiki qədər effektli olmaz.

Ümumiyyətlə, dünya artıq söz sürəti ilə fırlanır...

❑ **Sevinc TELMANQIZI**

Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Yeni Müsavat"a son müsahibəsində Rusiyadan son zamanlar təzyiqlərin artması və Ermənistan-Rusiya birgə qoşun qruplaşmasının komandiri Andranik Markaryanın "Ermənistan-Rusiya birgə qoşun qruplaşması Qarabağda vəziyyətin gərginləşməsi halında ləngimədən tətbiq edilə bilər" bəyanatı ilə bağlı rəsmi Bakının Rusiyadan ciddi izahat tələb etməsinin vacibliyini bildirib:

# Rəsmi Bakının balans siyasətinin daha bir sirri

## Əli Əliyev: "Siyasi hakimiyyətin ehtiyatlı davranışında qeyri-adilik görmürəm"

"Qoy Rusiya bununla bağlı bizə açıqlama versin. Bizim XİN-in səhvidir ki, buna qarşı hansısa addımlar atılmayıb. Bununla bağlı nota verilməli, Rusiya səfiri XİN-ə çağırılmalı, ondan izahat tələb olunmalıdır. Necə olur ki, erməni generalı rus qoşunlarının adından deyir ki, "mən onu Qarabağa yeridə bilərəm". Təkzib olunmalıdır təbii ki... Biz hamımız ÜAK-dan danışırıq, Rusiya-Azərbaycan əlaqələri üçün daha ciddi və əhəmiyyətli məsələ var. Odur ki, bu məsələyə aydınlıq gətirilməlidir".

Qeyd edək ki, Azərbaycan hökuməti Qərbdən hansısa təzyiq olduqda və ya xoşagəlməz addım gördükdə daha sərt reaksiya verir. Qərbə qarşı daha güclü hücum kampaniyası həyata keçirilir. Rusiyadan isə nə qədər zərbə alsaq belə, Qərbə qarşı olan hücumların hətta yarısı səviyyəsində anti-Rusiya təbliğatı təşkil edilmir. Səbəb nədir? ÜAK ABŞ-da olsaydı və ABŞ məhkəməsi onu bağlasaydı indi mənzərə necə olardı?

**VİP sədri Əli Əliyev** bildirdi ki, hakimiyyət Rusiyadan çəkinir, Rusiyanı təhlükəli güc bilir. Sadə gözlə də bu gerçəyi fərq etmək mümkündür: "Hakimiyyət fərqindədir ki, Rusiya və İran Azərbaycana real təsirə malik dövlətlərdir. İqtidar real cəmiyyət dayaqlarına yetərincə malik olmadığından dəngəni poza biləcək istənilən faktordan ehtiyat edir. Qərb dövlətləri isə Azərbaycanda daxili təsir amillərinə malik olmadıqlarından, hakimiyyət onlara qarşı daha arxayın, ürəkli davranır. Lakin hesab edirəm ki, son ÜAK olayında hakimiyyət Rusiyaya qarşı müəyyən qədər sərt reaksiya verdi. Çünki uzun müddətdir Rusiyanın intensiv təhdidi görünürdü. Patruşev, Nazarbayev, Solovyov, Duqinin gəlişləri deyilənlərin təsdiqidir. Təqribən 2013-cü ildəki olaylar təkrarlanır. Azərbaycana "diqqət" referendum dəyişikliklərinin tətbiqindən sonra yüksəlib. Rusiya narahatlıq keçirir. ÜAK da təzyiq kampaniyasının tərkib hissəsidir. ÜAK-a rəhbərlik edən şəxs prezidentlə qohum olan şəxsdir. Rusiya bu dəfə qırmızı



Əli Əliyev

xətti keçib. Hesab edirəm ki, hakimiyyət bu dəfə loyal olmayacaq. Rusiyanın cavabı ehtiyatla da olsa da verilir. Lakin ümumilikdə iqtidar yuxarıda dediyim səbəblərdən kəskin deyil, asta davranışa üstünlük verir. Şübhəsiz ki, hansısa diaspora təşkilatımız ABŞ-da bağlansaydı Bakının reaksiyası daha sərt olacaqdı".

**Yeni AXCP-nin sədri Razi Nurullayev** isə hesab edir ki, ÜAK kimi hansısa diaspora təşkilatımız ABŞ-da da bağlansaydı, heç nə baş verməyəcəkdi. Yenə də eyni adamlar danışacaq və eyni adamlar yönləndirəcəkdir. Rusiyaya daha dözümlü və ehtiyatlı yanaşılmasının isə bəlli səbəbləri var: "Təbii ki, Rusiya Azərbaycan xalqı və həm də Azərbaycanın siyasi hakimiyyəti üçün daha təhlükəli güc-dür. Rusiya dünyada qəbul edilmiş oyun qaydaları ilə hərəkət etmir və atdığı addımları da razılaşdırmır. Bu ondan irəli gəlir ki, Rusiya hələ müdrik və oturuşmuş dövlət deyil. Buna zaman lazımdır. Rusiya, sanki özünü təsdiq, özünü isbat etmə və özünü qəbul etdirmə mərhələsindədir. Belə demək olar ki, Rusiya indi beyni qan gənclik dövrünü yaşayır. Bu gənclik isə oxumamış, savadlanmamış, az dünyagörüşlü, böyüklüyü qol gücündə və zorbada görən bir şəxsdir. Azərbaycan təbii ki, ehtiyatlı olmalıdır. Buna görə də Azərbaycanın siyasi hakimiyyətinin ehtiyatlı davranışında qeyri-adilik görmürəm. Yəqin ki, hakimiyyət sözünü təbliğatçıları və spikerləri vasitəsilə deyib. İndi diplomatik yol qalıb və bunun üzərində iş gedir. Qərblə isə daha asandır. Onlar gəncliyin beyni qan dövrünü yaşayıb və indi müdrik yaşdadırlar. Ən azından dinləməyi bacarır və tələsik qərarlar vermirlər. Digər tərəfdən isə bir qayda olaraq, Qərb əsasən qanunsuz hərəkətlərə yol vermir. Ona görə də Azərbaycan hakimiyyəti Qərbin üzərinə getməyi az təhlükəli və ya təhlükəsiz sayır".

❑ Etibar SEYİDAĞA

# Qazaxıstan Beynəlxalq Bankdakı vəsaitlərini xilas etməyə çalışır

## Hökumət borcu ödəyəcəkmi?

**Hazırda Qazaxıstan hökuməti ilə Azərbaycan hökumətini diplomatik kanallar vasitəsilə ciddi dialoq gedir. Səbəb isə odur ki, Qazaxıstanın Vahid Yığım Pensiya Fondunun bir qədər əvvəl xarici borclarını restruktizasiya etməyə qərar vermiş "Azərbaycan Beynəlxalq Bankı" ASC-də (ABB) 71 milyard təngədən çox (bugünkü məzənnə ilə 383,4 milyon manat- L.N.) pulu qalıb.**

Qazaxıstan mətbuatının məlumatına görə, bu ölkənin Xarici İşlər Nazirliyi həmin vəsaitin geri qaytarılması üçün Azərbaycan tərəfi ilə diplomatik kanallar vasitəsilə aktiv əməkdaşlıq etməyə qərar verib. Rəsmi Astana ABB-nin qiymətli kağızlarına qoyulmuş pulların batacağından ehtiyat edir.

Qeyd edək ki, Azərbaycan Beynəlxalq Bankı 3,3 milyard dollar həcmində borcun restrukturizasiyasına nail olmaq məqsədi ilə mayın 11-də Nyu-Yorkda məhkəməyə müraciət edib. Restrukturizasiya kreditin və ya onun qaytarılması şərtinin dəyişdirilməsi deməkdir.

Məlumata görə, ABB-ın ən azı 2,3 milyard dollar borcu və Dövlət Neft Fondundan 1 milyard dollar depoziti var. Müştərilərin hesabları da daxil olmaqla, öhdəliklərin ümumi məbləğinin 8 milyard dollar təşkil etdiyi bildirilir. Mayın 11-də Azərbaycan hökumətinin bankın öhdəliklərinin dövlətə ötürülməsinə qərar verdiyi açıqlanıb.

Bəs, görəsən bu borcların ödənilməsində üstünlük xarici borclara veriləcəkmi? Qazaxıstanın borc tələbi hansı formada həyata keçiriləcək? Borc ödənilməzsə, bu məsələ məhkəmə predmeti ola bilərmi?

"Yeni Müsavat"ın suallarını cavablandıran **iqtisadçı-ekspert, hüquqşünas Əkrəm Həsənov** da təsdiqlədi ki, bu məsələ qonşu və qardaş ölkə olan Qazaxıstanda ciddi problem yaradıb və gündəmdən düşmür: "Elə gün yoxdur ki, Qazaxıstan mətbuatı bu-




nunla bağlı mənimlə əlaqə saxlamasın. Onları narahat edən xüsuslardan biri həmçinin odur ki, rəsmi qurumlarımız və ABB özü bununla bağlı şərh vermir, onlarla danışan təkcə mənəm - qeyri-rəsmi şəxs, vəkil və ekspert. Yaxşı olardı ki, ən azı bank özü Qazaxıstan ictimaiyyəti ilə təmas saxlasın. Ən azı ona görə ki, söhbət beynəlxalq qurumlarda bizim tərəfimizi bütün saxlayan dost ölkədən gedir. Məsələnin mahiyyəti budur ki, ABB və Palata durduqları yerdə başımıza oyun açıblar. BB ödəniş qabiliyyətini itirib: ötən ildən 1,74 mlrd. manat (1 mlrd. dollar) zərərlə çıxıb. Buna görə də borclarını ödəyə bilmir. ABB və Palata bankın xarici kreditorlar və bizim Neft Fondu qarşısında 3,337 mlrd. dollarlıq öhdəliklərinin publik restrukturizasiyasına başlayıb: onları dövlətin üzərinə keçirəcək. Neft Fonduna olan 1 mlrd. dollar borcu çıxsaq, 2,337 mlrd. dollar qalır".

**Əkrəm Həsənov hesab edir ki, həmin xarici kreditorlarla bank özü təkbətək bu barədə razılığa gəlsəydi daha yaxşı olardı:** "Məsələni ictimailəşdirmək və "topdan" həll etmək yersiz idi. Çünki buna görə bank ABŞ məhkəməsinə də müraciət etməli oldu ki, restrukturizasiya ərəsində ona qarşı iddialar qəbul edilməsin. Nəticədə elə rəy yarandı ki, guya ABB artıq müflis olur. Əslində dövlətin bu dəstəyindən sonra bank 2 mlrd. dollardan çox məbləğdə mənfəətə çıxacaq. Deməli, kreditorlar, o cümlədən Qazaxıstan Fondu narahat olmaya bilər. Lakin məsələnin qoyuluşu elə naşı və savadsız oldu ki, dünyada haqqımızda mənfi rəy yarandı".

**İqtisadçının fikrincə, hazırda Qazax partnyorlarımızı iki məsələ narahat edir:** "Birincisi, niyə dövlətimiz onların da borcunu üzərinə götürmədi? Haqlı sualdır. Niyə ABŞ, Fransa, Almaniya, İsveçrə, Rusiya və s. ölkədən olan kreditorlar qarşısında borcları dövlətimiz üzərinə götürür, amma Qazaxıstandan olan qarşısında yox? Təbii, bu incilik üçün əsas yaradır. Bir daha təkrar edirəm ki, məsələni ictimailəşdirməsəydilər, belə problem heç çıxmayacaqdı. İndi isə bankın problemli olduğu bəlli oldu və hamı vəsaitinə görə qorxur. Hətta ölkə daxilində də bankdan xeyli əmanət çıxarıldı bu günlərdə. Bank sistemimiz ABB və Palatanın bisavadlığının, qeyri-peşəkarlığının qurbanı oldu. İkincisi, bank mənfəətə çıxır və öhdəlikləri üçün artıq problem yoxdur. Amma Qazaxıstan qarşısında borc 7 ildən sonra ödənilməlidir. Kim qarantiya verir ki, həmin anda bankın vəziyyəti necə olacaq? Nəzərə alsaq ki, bank özəlləşdirilməyə hazırlanır, deməli, dövlət onu daha xilas etməyəcək. Qazaxlar da haqlı olaraq bundan ciddi şəkildə narahatdırlar. Amma onlar üçün məsələnin hüquqi həlli yolu yoxdur. Çünki dövlətimiz ABB-nin öhdəliklərinə görə cavabdeh deyil".

**Ekspert qeyd etdi ki, hazırda hər hansı məhkəmə prosesindən söhbət gedə bilməz:** "Bankın səhmlərinin 95 faizdən çoxunun dövlətimizə məxsus olmasına baxmayaraq, Qazaxıstan borcu yalnız bankdan tələb edə bilər. Bank da indi həmin borcu ödəməyə bilər, çünki ödəniş vaxtı 2024-cü ildədir. Buna görə də hər hansı məhkəmə prosesindən söhbət gedə bilməz. Böyük ehtimalla Qazaxıstan məsələni diplomatik kanallarla həll etməyə çalışacaq. Qazaxıstanda ictimaiyyət hökumətdən hesabat tələb edir. Buna görə də əllərindən gələni edəcəklər ki, pullarını indi götürsünlər. Böyük ehtimalla biz də elə indi qaytaracağıq. Çünki bu ölkə ilə münasibətlərimiz çox önəmlidir".

❑ Nərgiz LİFTİYEVA

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 109 (6723) 23 may 2017

# Qarabağ regionu hər an alovа bürünə bilər

## Ermənistan hakimiyyətinin havadarlarından stimul alaraq təcavüzkar siyasətini davam etdirməsi, daşnaklarla koalisiyası, sülh danışıqlarından imtinası Azərbaycanı hərb variantına sövq edir; həmsədrlərdən imtina çağırışı yenidən gündəmdə...

**Mayın əvvəlində Qarabağda müharibə riskinin mövcudluğu ilə bağlı ABŞ Milli Kəşfiyyat Agentliyinin xəbərdarlığının əsaslı faktlara söykəndiyi getdikcə daha çox məlum olur. İşğalçı Ermənistan bütün davranışları ilə prosesləri danışıqlar müstəvisindən savaş müstəvisinə çəkməyə hesablanıb.**






Heç şübhəsiz, ABŞ-ın sözügedən agentliyinin direktoru Daniel Kouts Konqresə təqdim etdiyi hesabatda "Tərəflərin kompromislərə getmək niyyətinin olmaması və ölkələr daxilində artan təzyiqlər bu il Azərbaycanla Ermənistan arasında Qarabağda tammiqyaslı hərbi əməliyyatlara gətirib çıxara bilər" xəbərdarlığı durumun hərtərəfli anlizindən sonra ortaya çıxıb. Düzdür, agentlik rəhbəri tərəflər arasında bərabərlik işarəsi qoymaqla ədalətsizlyə yol verib. Əslində Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinin müqabilində Qarabağ ermənilərinə ən yüksək status-muxtar respublika status və təhlükəsizlik vəd etməklə böyük güzəştlərə hazırdır. Lakin işğalçı birmənalı şəkildə bu təklifləri qəbul etməkdən boyun qaçırır. Belə olduğu halda, Azərbaycanın öz ərazilərini azad etmək üçün hərb variantından istifadədən başqa çıxış yolu qalmır.

Üstəlik, ATƏT Minsk Qrupunun həmsədrlərinin son günlər təmas xəttində atəşkəs rejiminin pozulması hallarını pisləyən bəyanatında dolayısı ilə Azərbaycanı günahlandırmağa çalışması, işğal altındakı "OSA" zenit-raket qurğusunun, Azərbaycan əhalisi və hərbi qüvvələrinin təhlükəsizliyini təhdid edən hərbi qurğunun məhv edilməsinə görə (!) Azərbaycan tərəfini ittiham etməsi vasitəçilərin missiyasının nəticə verəcəyinə ümidləri heçə endirib. Rusiyanın da Ermənistanla hərbi birləşmə yaratması, onun başına gətirilən erməni general Andranik Makaryanın açıq mətnlə Azərbaycanı təhdid etməsi düşmənin kifayət qədər azğınlaşdığını göstrədi.

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov** məhz bununla əlaqədar "Yeni Müsavat"a deyib ki, Azərbaycan XİN Makaryanın bəyanatı ilə bağlı Rusiyaya nota verməli, səfir nazirliyə çağırılmalı, ondan izahat istənilməlidir. Yəni ən azı Moskvanın erməni generalın bəyanatını müdafiə edib-etmədiyinə aydınlıq gətirilməlidir. Məhz bundan sonra Azərbaycanın növbəti addımlarını müəyyənləşdirməsi daha asan olacaq, nəinki indiki qeyri-müəyyən vəziyyətdə. Düzdür, Ermənistandakı erməni-rus hərbi birləşmələrinin Qarabağdakı hərbi əməliyyatlara qarışmaq hüququ yoxdur. Amma Sergey Lavrovun "Dağlıq Qarabağ Azərbaycanın daxili işi deyil" yanaşmasını xatırlayanda beynəlxalq hüququn kənarda saxlanması risklərini də unutmamalıyıq.

Bu mənada Azərbaycanın ən təhlükəli situasiyalar üçün muttəfiqləri ilə birlikdə hazırlıqlı olması zərurətə çevrilir. Azərbaycanın Türkiyə ilə hərbi əməkdaşlığını gücləndirməsi təqdir olunmaqla yanaşı, bu istiqamətdə irəliyə doğru digər addımların yaradılması da Rusiya-Ermənistan hərbi müttəfiqliyinə cavab olardı. Mayın 22-də Azərbaycanın müdafiə naziri Zakir Həsənovun Gürcüstana səfər etməsi, gürcü həmkarı Levan İzoria ilə müzakirələr aparması da təqdirolunan addımdır. Türkiyə-Azərbaycan-Gürcüstan hərbi əməkdaşlığının işğalçını narahat etdiyini yaxşı bilirik. Eyni zamanda Gürcüstanın Ermənistana hərbi məqsədli yükləri qadağan etməsi də işimizə yarıyır. Bundan əvvəl Azərbaycan müdafiə nazirinin İrana etdiyi səfər, iranlı həmkarı ilə keçirdiyi görüş də İrəvanda narahatlıq yaratmışdı və Ermənistanın müdafiə naziri bir neçə gün sonra İranın müdafiə naziri ilə Moskvada bir araya gəlmişdi. Bütün bu proseslərin fonunda Qarabağ cəbhəsində gərginliyin artması faktdır və hər an müharibə alovu bölgəni bürüyə bilər.

Təkcə son günlərin statistikası gərginlik fazasının təhlükəli həddə olduğunu nümayiş etdirir. Əslində Rusiyanın ev sahibliyi ilə XİN başçılarının Moskva görüşünün nəticəsiz başa çatmasından sonra işğalçı ölkə başçısının Şuşanın işğalının 25 illik tədbirlərinə qatılması həyasızlığın pik nöqtəsi idi. Bölgədə gərginlik günbəgün məhz həmin tədbirlərdən sonra artmaqdadır. Digər tərəfdən, Serj Sərkisyan 2 aprel seçkilərində Levon Ter-Petrosyan kimi güzəştli sülh tərəfdarlarını qapı arxasında saxlamaqla, əvəzində Daşnaksütyun partiyasının parlamentdə və hökumətdə təmsilçiliyinə yaşıl işıq yandırmaqla, daşnaklarla koalisyaya getməklə Qarabağ məsələsinin diplomatik yolla həlli yolundan imtina etdiyini nümayiş etdirdi. Konstitusiya dəyişikliklərindən sonra hakimiyyətinin ömrünü uzatmaqla bağlı çeşidli planlar quran Sərkisyan 2018-ci ilin aprelində prezidentlikdən baş nazirliyə keçid şansı əldə etmək üçün manevrlər edir. Düzdür, erməni xalqının cani prezidentə qəzəbi sonsuzdur, amma cəmiyyətin müqavimətinin sıfırlanması şəraitində hərbi xunta rejimi qurmuş S.Sərkisyanın növbəti posta sahiblənməsi çətin görünmür. Bu, isə o deməkdir ki, S.Sərkisyan ən azı 2018-ci ilin ortalarınadək Qarabağda status-kvonun dəyişməsində maraqlı olmayacaq, deməli, hərb yolu qaçılmaz olacaq.

**Politoloq Arzu Nağıyev** də "Yeni Müsavat"ın arqumentlərini bölüşdü: "Təbii ki, bütün bu qeyd olunanlar heç də müsbətə doğru bir dəyişiklik deyil. Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanması, status-kvonun saxlanması Sərkisyan rejiminin ömrünün uzanması deməkdir. Bu hallar gözlənilən idi. Çünki havadarlarının xeyir-duası ilə parlament seçkilərində yenə də Sərkisyan rejimi, daha doğrusu, "müharibə partiyası" hakimiyyəti zəbt etdi. Artıq Ermənistan Müdafiə Nazirliyində də siyasiləşmə gedir. Bütün bunlar da cəbhədə gərginliyin artmasına gətirib çıxarır".

**Ekspert qeyd etdi ki, Rusiyanın mövqeyi aydındır**: "Moskva tam şəkildə separatçı rejimi dəstəkləyir və bununla da Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini kölgədə qoyur. Təbii ki, müharibə istəməsə də, hərbi vəziyyətin belə qalması Rusiyaya xeyirdir. Çünki silah satır və hətta bununla bölgədə öz nəzarətini bərpa edir. Rusiya bazalarına gələn silahların Dağlıq Qarabağ ərazisində peyda olması heç də təəccüblü deyil".

**A.Nağiyevə görə, döyüş bölgəsindəki son hadisə də Ermənistana sensasiya üçün lazım olan addım idi:** "OSA tipli silahla Azərbaycanın hava məkanına nəzarət etməklə, məqsəd heç də mülki aviasiyaya qarşı deyildi. Bu, təbii ki, təmas xəttində uçan Azərbaycana məxsus təyyarə və helikopterlərə aid idi, hətta terror aktları da istisna edilmirdi. Ermənilər bilirdilər ki, əvvəl-axır bu raketi sıradan çıxaracaqlar. Lakin sensasiya, gərginlik yaratmaq əsas məqsəd idi. Bir sözlə, belə vəziyyət çox davam edə bilməz. ATƏT-in Minsk Qrupu demək olar ki, fəaliyyətsizdir, Rusiya təzyiq əvəzinə, ermənilərlə həmrəylik nümayiş etdirir. Bunun sonu isə lokal hərbi əməliyyatlarla nəticələnə bilər".

***

Qarabağ bölgəsindəki durumun gərginliyi beynəlxalq ekspertlərin də diqqətini cəlb edib. Döyüşlərin şiddətlənməsi barədə məlumatlar artdıqca "Qarşıdurma nəzarət altından çıxa bilərmi" sualı ortaya çıxır. Oxford Universitetinin St. Antony's kollecindən professor Robert Chenciner bu suala mənfi cavab verib. "Bütün alınan silahlara rəğmən, onun yalnız cüzi bir qismi istifadə olunub və indiyədək gördüyümüz qarşıdurmanın coğrafiyası yalnız təmas xəttilə məhdudlaşır" - Robert Chenciner BBC Azərbaycancaya bildirib. Münaqişə və dovlət quruluculuğu üzrə LİNKS təhlil mərkəzinin direktoru Dennis Sammut təmas xəttində eskalasiya riskinin "çox yüksək" olduğunu deyib. O, 4 günlük müharibədən sonra bir müddət hökm sürən nisbi sabitliyin ardınca vəziyyətin getdikcə pisləşdiyini deyib. "Bu il vəziyyət ötən ilə nisbətdə pisləşib. Bu ay isə ötən aya nisbətdə daha pisdir". Britaniyalı ekspertlə azərbaycanlı politoloq Rasim Musabəyov da razılaşaraq deyib ki, həll edilməmiş qalan münaqişə hər an yenidən alovlana bilər. "Dondurulmuş müharibə sülhə gətirmirsə, danışıqlar aparılmırsa, işğal davam edirsə, atəşkəsin pozulması qaçılmazdır və müharibə hər zaman alovlana bilər" - o deyib.

***

Bu arada Qarabağ Azadlıq Təşkilatı (QAT) ATƏT-in Minsk Qrupu həmsədrlərinin son ermənipərəst açıqlaması və Rusiyanın Azərbaycana qarşı yanlış addımları ilə bağlı bəyanat qəbul edib. "Azərbaycan Silahlı Qüvvələri mayın 15-də qarşıdurma xəttində Ermənistan silahlı birliklərinin təxribat məqsədilə yerləşdirmək istədikləri "OSA" zenit-raket kompleksini tam haqlı olaraq məhv edib. Azərbaycan bu yöndə fəaliyyətini davam etdirməli, o cümlədən işğalçı ordunun zəbt etdiyi ərazilərimizdə keçirdiyi hərbi təlimləri raket zərbəsi ilə dağıtmalı, işğalçı dövlətin terrorçu prezidentinin və digər rəsmilərinin işğal olunmuş ərazilərimizə istənilən səfərlərinin qarşısını raket zərbəsi ilə almalıdır. Azərbaycanın beynəlxalq hüquq normalarına, Azərbaycan qanunlarına görə buna tam haqqı var" - bəyanatda deyilir.

**QAT daha sonra bəyan edib:** "Minsk Qrupu həmsədrlərinə, Xankəndinə səfərlər etməkdən və bununla da oradakı qondarma qurumu təbliğ etməkdən yorulmayan Kaspşik adlı üzdəniraq "şəxsi nümayəndəyə" deyirik ki, hər dəfə sizlərdən işğalçı və işğala məruz qalanı göstərməyi xahiş edəndə susursunuz! İndi necə oldu ki, hamınız birlikdə atəşkəsin pozulmasında Azərbaycanı ittiham edirsiniz? Bəs nə üçün bu günə qədər Azərbaycanın 20 faiz ərazisini zəbt etmiş Ermənistanı işğalçı kimi tanımırsınız? Nə üçün terrorçu Sərkisyanın işğal olunmuş Dağlıq Qarabağa səfərlərinə heç bir reaksiya vermirsiniz? Cavab verin: Serj Sərkisyan hansı haqla həmin ərazilərə səfər edir? Nə üçün Ermənistanın işğal olunmuş ərazilərdə hərbi təlimlər keçirməsinə susursunuz? Nə üçün Ermənistanın işğal olunmuş ərazilərdə demoqrafik situasiyanı dəyişməsinə, kənardan erməniləri gətirib orada yerləşdirməsinə heç nə demirsiniz?" **QAT-ın sənədində deyilir ki, həmsədr ölkələr işğalçı, terrorçu Ermənistanı himayə edir:** "ABŞ, Fransa, Rusiya tam ermənipərəst mövqedən çıxış edirlər. Rusiya son hərəkətləri ilə bu istiqamətdə daha çox fəallıq göstərir. Ümumrusiya Azərbaycanlıları Konqresinin fəaliyyətinin dayandırılması, Rusiya XİN rəsmilərinin açıq ermənipərəst açıqlamaları, Rusiyanın Ermənistanı silahlandırması heç bir ölçüyə sığmır. Belə təsəvvür yaranır ki, Rusiya hökuməti bir dəstə erməni işbazının əlində oyuncağa çevrilib. Bütün bunları nəzərə alaraq hesab edirik ki, Azərbaycan Minsk Qrupu həmsədrlərinin vasitəçilik missiyasından imtina etməlidir. Həmçinin Azərbaycan Rusiya ilə münasibətlərinə yenidən baxmalıdır".

Təbii ki, 23 ildir Qarabağla bağlı bir addım da irəli gedə bilməyən Minsk Qrupunun fəaliyyətindən imtina vaxtaşırı gündəmə gəlib və bu günlərdə rəsmi Bakı növbəti dəfə "üçlüy"ə etirazını bildirib. Ancaq hər dəfə anti-Azərbaycan mövqelərin ardınca bölgəyə fərqli qiyafədə səfər edən diplomatlar vəziyyəti yumşaldıblar. Yəqin ki, bu dəfə də belə olacaq. Rusiyaya gəldikdə, Azərbaycan hələ ki şimal qonşusu ilə ehtiyatlı davranmağı daha doğru sayır. Çünki Gürcüstan və Ukrayna nümunələri var...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 109 (6723) 23 may 2017

# Redaksiyalar ev almaq istəyən jurnalistlərin siyahısını müəyyənləşdiriblər

**Bakının Bibiheybət qəsəbəsində jurnalistlərə tikilən yeni yaşayış binasında mənzillərin verilməsi qaydaları və şərtləri açıqlanıb. Mayın 16-da bununla bağlı keçirilən tədbirdə bildirilib ki, ən azı son 3 ildə fasiləsiz fəaliyyət göstərən kütləvi informasiya vasitəsi (televiziya və radio yayımçıları, qəzet, jurnal, informasiya agentliyi, internet xəbər portalı və saytı) komissiya tərəfindən müəyyənləşdirilmiş şərtlərə uyğun olaraq Bakı şəhərində fəaliyyət göstərən əməkdaşlarının namizədliyini irəli sürə bilər.**

Şərtlərə əsasən, televiziya və radio yayımçıları 10, gündəlik qəzetlər və informasiya agentlikləri 6, həftəlik qəzetlər, jurnallar, xəbər portalları və saytlar 3 namizəd müəyyənləşdirə bilərlər.

Namizədliyi verilən KİV əməkdaşı həmin redaksiyada ən azı fasiləsiz 3 il, KİV-lərdə isə ən azı fasiləsiz 10 il fəaliyyət göstərməlidir.

KİV-lər ümumi iclas çağırmalı, komissiyanın şərtlərinə uyğun namizədlərini müəyyənləşdirməli, komissiyaya təqdimat verməlidir (möhürlü və imzalı).

Adları Mətbuat Şurasının "qara siyahı"sına daxil edilən, barələrində məhkəmə qərarı olan və qanunvericiliyin tələblərini pozduqlarına görə Baş Prokurorluq tərəfindən xəbərdarlıq almış KİV-lər təqdimat verə bilməzlər.

Göstərilən sənədlər may ayının 22-dən iyun ayının 22-dək komissiyaya təqdim olunmalıdır. Komissiya toplanan sənədləri iyunun 30-dək Prezident Administrasiyasına təqdim etməlidir. Bina 255 mənzillidir. Prezident İlham Əliyevin sərəncamları ilə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna tikinti üçün dövlət büdcəsindən üst-üstə 16 milyon manat ayrılıb.

156 mənzilli ilk bina 4 il əvvəl Azərbaycan Jurnalistikası Günü mətbuat işçilərinə təqdim olunub.

*Bu isə o deməkdir ki, artıq redaksiyalarda iddialı jurnalistlərlə bağlı siyahıların tərtib olunmasına başlanılıb. "Yeni Müsavat" bəzi redaksiyalarla əlaqə saxlayaraq, ordakı durumu öyrənib. Siyahılar müəyyənləşibmi? Hər redaksiyanın siyahısında neçə nəfər var?*

**"525-ci qəzet"in baş redaktoru Rəşad Məcid** bildirdi ki, siyahı təxminən bilinir. Onun sözlərinə görə, qəzetin kollektivi kəskin rəqabət yaradacaq qədər böyük deyil: "10-20 ildən artıq stajı olan işçilər var. Narazılıq olmayacaq. 6 nəfər kriteriyalara uyğun jurnalistləri təqdim edəcəyik. Bu günlərdə fondun nümayəndəsinin iştirakı ilə iclas keçiriləcək".



**Rəşad Məcid:** "Mübahisə düşmədi, hər şey kriteriyalara uyğun müəyyənləşdi"



**Aynur Camal:** "3 saytımız var, qaydaya uyğun olaraq, hər saytın adından 3 namizəd verəcəyik"

Müsahibimiz dedi ki, redaksiyanın siyahısında ümumən 6 nəfər var. Baş yazar siyahının tərtib olunmasında hər hansı çətinliklə üzləşmədiklərini dedi: "Kollektivdə daha çox gənclər var. O baxımdan kriteriyalara uyğun gələnlərin kimlyi onsuz da bəllidir".

**"Gündəlik Teleqraf" Media Qrupunun rəhbəri Aynur Camal** da bildirdi ki, onlar siyahını təxmini müəyyən ediblər və artıq müraciətləri hazırlayırlar: "Hazırlıq prosesi gedir. Çalışırıq ki, ən çox ehtiyacı olanların adı siyahıda öz əksini tapsın. Siyahının tərtib olunmasında heç bir çətinliyimiz olmadı. Çünki artıq neçə illərdir ki, bir yerdə çalışırıq. Hər kəsin problemlərini, imkanlarını bilirəm".

**A.Camal rəhbərlik etdiyi media orqanlarından daha çox insanın adını siyahıya daxil etmək istədiklərini desə də, reallığı anladıqlarını da vurğuladı:** "3 saytımız var. Qaydaya uyğun olaraq, hər saytın adından 3 namizəd verəcəyik, yəni, ümumilikdə 9 nəfər. Amma reallığı anlayırıq. Cəmi 255 mənzildir. Müraciətlər isə bildiyimiz kimi, həddən ziyadədir. Yəni 255 mənzilin bu qədər iddiaçı arasında bölüşdürülməsinin necə çətin olduğunu anlayırıq. Amma inanırıq ki, ötən dəfə olduğu kimi, yenə də ən ədalətli qərarlar veriləcək. Ən çox haqqı çatan və ən çox ehtiyacı olan həmkarlarımız evlə təmin olunacaq. Bu, elə bir məsələdir ki, şəxsən mənim üçün mənim əməkdaşım, yaxud digər saytın, qəzetin əməkdaşı söhbəti yoxdur. Harda işləməsindən asılı olmayaraq, hansı həmkarımızın mənzil şəraiti yaxşılaşacaqsa, buna sevinəcəyik".

❑ **Sevinc TELMANQIZI**

# İslam Oyunlarından sonra dollar bahalaşacaqmı...

## "Dollar-manat münasibətlərində birdən-birə kəskin hərəkətlərin olmasını da gözləmək olmaz, çünki..."

**Azərbaycan valyuta bazarı nə qədər çalxalansa da, manat öz sabitliyini qorumaqda davam edir. Mərkəzi Bankın bu istiqamətdə atdığı addımlar iqtisaidyyatı iflic etsə də, hökumət dolların hazırki qiymətində qalmasında maraqlıdır. Səbəb kimi isə ölkəmizdə keçirilməkdə olan IV İslam Həmrəyliyi Oyunları göstərilir. Belə ki, hökumçət ölkəmizə gələn turistlərdən dolları ucuz almaq da maraqlıdır.**



Son aylar cəmiyyətdə belə bir rəy var ki, bu idman oyunlarından sonra manatın məzənnəsi kəskin ucuzlaşa bilər. Çünki Mərkəzi Bank gec-tez dövriyyədəki manat kütləsini artırmağa məcbur olacaq.

*Artıq İslam Oyunları başa çatdı. Bəs görəsən manat-dollar cəbhəsindəki durumu iqtisadçılar necə dəyərləndirirlər?*

Bu sualı cavablandıran iqtisadçı **ekspert Natiq Cəfərli** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, manatın məzənnəsi ilə bağlı proqnozları təkcə İslam Oyunları ilə bağlamaq doğru deyil: "Çünki bu oyunlardan sonra Formula 1 yarışlarının başlaması da gözlənilir. Bu mənada dollar-manat münasibətlərində birdən-birə kəskin hərəkətlərin olmasını da gözləmək olmaz. Mərkəzi bank bunun manat kütləsini də kifayət qədər daraldıb. Birdən-birə manatın dövriyyəsini artırmaq və dolların məzənnəsini qaldırmaq daha ciddi fəsadlara gətirib çıxara bilər. Ancaq burada xarici faktorlar da rol oynayır. ABŞ-ın Federal Rezerv Sistemi iyun ayının 14-15-də növbəti toplantısını həyata keçirəcək. Ayın 15-də Bakı vaxtı ilə gecə saatlarında növbəti qərarını açıqlayacaq. 90 faiz ehtimalla FED faizləri artırmaqla bağlı qərar çıxaracaq. Bundan sonra da bizdə də dollarla bağlı ciddi hərəkətlilik gözləmək mümkündür".

**Ekspert avronun manat qarşısında bahalaşmasının da valyuta bazarı üçün ciddi hadisə olduğunu vurğuladı:** "Daha bir maraqlı faktor ondan ibarətdir ki, Azərbaycanda nədənsə hamı dollarla maraqlanır, ancaq avro ilə maraqlanan yoxdur. Son 3 həftədə avro təqribən 10 qəpiyə yaxın bahalaşıb. Manatın digər bir dünya valyutası qarşısında ucuzlaşması artıq baş verib. Bunun ardınca, dünya dollarla gedən proseslərin də olması ehtimalı , Azərbaycanda Mərkəzi Bankın daha yumşaq monitor siyasət aparması , manat kütləsinin dövriyyəsini artırmaq cəhdi mütləqdir. Çünki onsuz da aşağı səviyyədə olan iqtisadi aktivlik daha da bərbad duruma düşə bilər. Hər ay iqtisadi aktivlik aşağı düşür, ümumdaxili məhsul 1,3 faiz azalıb. Bunun qarşısını almaq çün manat kütləsi artmalıdır. Bunun üçün də banklardan kreditləşmə genişlənməlidir, banklar iqtisadiyyata ciddi şəkildə yatırım qoymağa başlamalıdırlar. Bütün bunların fonunda deyə bilərik ki, gələn ayın sonuna yaxın, ümumiyyətlə ilin sonuna yaxın dolların manata olan nisbəti mərhələli şəkildə artan xətt üzrə gedəcək".

**N.Cəfərli Formula 1 yarışlarının bitməsindən etibarən ilin sonuna qədər dolların mərhələli şəkildə bahalaşaraq 1.92 məzənnəsinə geri dönəcəyini vurğuladı:** "FED-in növbəti faiz artımı da sentyabr ayının sonuna təsadüf edəcək. Təqribən 20-25 sentyabr tarixləri arasında da bu qurumun növbəti toplantısı olmalıdır. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, hazırda avro ilə bağlı ciddi proses gedir, avronun bahalaşmasını bir müşahidə edirik. Dollarda baş verən proseslər isə gələn ayın ortalarından başlayaraq ilin sonuna kimi addım-addım gedəcək. Ən azından bir şey dəqiqdir ki, Mərkəzi Bankın ən aşağı qırmızı xətti 1.70 -dir. Dolların bundan aşağı düşməsini istəmir, çünki bu AMB-nin özünə də sərf etmir. Büdcənin formalaşdırılması ilə bağlı problem yaşanır. Yuxarı hədd isə biz yanvar ayında gördük. Dollar manat qarşısında 1.92-ə qədər bahalaşdı. Ola bilər ki, proses addım-addım həmin mərhələyə yaxınlaşsın. Lakin kəskin addımların , bir gecəlik devalvasiyaların olacağını söyləmək yersizdir. Bunu heç kim gözləmir. Mən düşünmürəm ki, hazırda belə bir addıma ehtiyac var və Mərkəzi Bank belə bir addım ata bilər".

❑ **Nərgiz LİFTİYEVA**

# Eldar Mahmudov "dirilə" bilərmi...

## Sülhəddin Əkbər: "Azərbaycanda proseslərin gedişiatından asılı olaraq onun reanimasiyası mümkündür"

**2015-ci ilin oktyabrında Milli Təhlükəsizlik Nazirliyində (MTN) başlanan "təmizləmələr" son nəticədə qurumun birdəfəlik ləğvi ilə yekunlaşdı. Amma sabiq nazir Eldar Mahmudov bu günə qədər istintaqdan kənar qala bilib. Bu fakt zaman-zaman sabiq nazirin reanimasiya oluna biləcəyi haqda məlumatların dövriyyəyə girməsinə yol açır. Bu günlərdə sabiq nazirin keçmiş cangüdənlərini, mühafizəçilərini işə qaytarması xəbəri bir daha yenidən vəzifəyə gətiriləcəyi haqda iddiaları artırıb.**



Sülhəddin Əkbər

Milli təhlükəsizlik nazirinin birinci müavini işləmiş Sülhəddin Əkbər deyir ki, Azərbaycan, ölkəmizin yerləşdiyi region çox həlledici mərhələyə daxil olub: "İçində olduğumuz il, qarşıda gələn il dünya, region və Azərbaycan üçün sınaq illəridir. Ölkəmiz çox çalxantılı dönəmə girib. Ona görə də Azərbaycan siyasətində ziqzaqları görməyimiz labüddür. Azərbaycan böyük okeanda olan kiçik bir qayıqdır. Azərbaycan böyük geopolitik qarşıdurma təsiri altında o tərəfə, bu tərəfə gedəcəkdir. Xarici təsirlər Azərbaycan daxilində çox açıq şəkildə hiss olunacaq. Azərbaycan stratejiçünə görə kişik, zəif dövlətdir. Müstəqilliyini yeni əldə edib, torpaqları işğal altındadır, müharibə şəraitindədir. Xarici təsirlər ölkə daxilində hiss olunacaq və ölkə daxilində marağı olan böyük dövlətlərin hər birinin "5-ci kolon"u var və çox aktiv şəkildə fəaliyyətdədir. Azərbaycanda eyni zamanda xarici və regional güclərin gizli savaşı gedir. Bu gizli savaş İran məsələsinə görə aktivləşəcək. Yaxın zamanlarda çox ciddi hadisələrin şahidi olacağıq və Eldar Mahmudovun MTN-də bu qədər ağır cinayətlərin baş verməsinə, sübut olunmasına baxmayaraq, ümumiyyətlə prosesə cəlb olunmaması çox böyük suallar yaradır. Bu o deməkdir ki, Eldar Mahmudov həm böyük xarici güclər, həm də ölkə daxilində güclü təsiri olan müəyyən qrup tərəfindən müdafiə olunur. Bu, açıq şəkildə ortadadır. Azərbaycanda proseslərin gedişiatından asılı olaraq Eldar Mahmudovun reanimasiyası mümkündür".

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 109 (6723) 23 may 2017

**Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunları başa çatdı. Apasport.az saytının məlumatına görə, paytaxtımızda təşkil olunan yarışa tennisçilərin mübarizəsi ilə yekun vuruldu.**
**Bununla İslamiadada 268 dəst medal öz sahibini tapıb. 11 gün ərzində 269 qızıl, 267 gümüş, 350 bürünc, ümumilikdə 886 mükafat 40 ölkə təmsilçisi arasında bölüşdürülüb. Yarışa qatılan 14 ölkənin komandası isə Bakıdan əliboş qayıdır.**




# İslam Həmrəyliyi Oyunları ölkəmizə nə qazandırdı...

## Şahin Cəfərli: "Azərbaycan bu tip idman yarışlarını yaxşı təşkil edə bildiyini bir daha göstərdi"

## Elxan Şahinoğlu: "Ərəb ölkələrindən Azərbaycana güclü axın var, bunda Bakıda keçirilən idman yarışlarının da təsiri böyükdür"

Bu medallardan 162-si Azərbaycan idmançılarının payına düşüb. Ümumi medal sayında Türkiyədən (195) geri qalmasına baxmayaraq, əyarına görə yığmamız İslamiadanın qalibi olub. Bununla da ölkəmiz tarixində ilk dəfə multi-idman tədbirinin ən güclüsü adına yiyələnib. İndiyədək ən yaxşı nəticəmiz 2 il öncə Avropa Oyunlarında 2-ci pillədə qərarlaşmağımız idi.

Azərbaycan millisi həm də İslamiadaların ənənəsini davam etdirib. Belə ki, Səudiyyə Ərəbistanı 2005-ci, İndoneziya 2013-cü ildə təşkil etdiyi Oyunların qalibi olmuşdu. Lakin qızıl medal sayında həmin ölkələri də geridə qoyan Azərbaycan mütləq rekord müəyyənləşdirib. 75 çempionluq yaşayan millimiz İslamiadalar tarixinin görünməmiş nəticəsinə imza atıb. Türkiyə millisinin qazandığı 195 medal da tarixə rekord kimi düşüb.

Ümumilikdə isə yığmamız 75 qızılla yanaşı, 50 gümüş və 37 bürünc medal sevinci də yaşayıb. İkinci olan Türkiyə bizdən 4 qızıl az alıb. İlk "üçlüy"ü 98 mükafatla İran qapayıb.

Rəsmi statistika ilə yanaşı, bu yarışların Azərbaycana sözün böyük mənasında nələr verməsi, hansı nəticələr qazandırması da səslənən suallar sırasındadır.

**Politoloq Şahin Cəfərli** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, İslam Həmrəyliyi Oyunları "müsəlman Olimpiadası" kimi təqdim olunsa da, dünya miqyasında prestijli idman turniri kimi qəbul olunmur: "Səhv etmirəmsə, bu yarışlarda əldə olunan fərdi və kollektiv nəticələrin beynəlxalq reytinqlərə təsiri yoxdur və dünya, qitə miqyaslı turnirlərə lisenziya da verilmir. Bu səbəblə, düşünürəm ki, bu tədbirə sırf idman yarışı kimi yanaşmaq doğru olmaz. Adından da göründüyü ki, İslam Həmrəyliyi Oyunları müsəlman ölkələrinin və toplumlarının daha da yaxınlaşması, insanlar arasında əlaqələrin qurulması kimi sosial və müəyyən dərəcədə siyasi xarakterli məqsədlərə xidmət edir. Bu gün islam dünyasında yaşanan problemlər hamıya bəllidir. Həmrəylik üçün xüsusi tədbirin müəyyənləşdirilməsi faktının özü göstərir ki, bu həmrəylik arzuolunan səviyyədə deyil və ideyanın müəllifləri onu təmin etməyə ehtiyac duyurlar. Məsələn, 2-ci İslam Həmrəyliyi Oyunları İran İslam Respublikasında keçirilməli idi, lakin baş tutmadı. Çünki səléfi ərəb dövlətləri ilə şiə İran dövləti arasında dərin antoqonizm mövcuddur. Elə yarışların keçirildiyi günlərdə biz hər iki tərəfdən çox sərt bəyanatların, qarşılıqlı hədələrin şahidi olduq. İran müdafiə naziri Səudiyyə Ərəbistanından olan həmkarının "müharibə olarsa, həbi əməliyyatların bizim torpaqlarımıza keçmədən İran ərazisində aparılmasına nail olmalıyıq" bəyanatına cavab olaraq bildirdi ki, Məkkə və Mədinə istisna olmaqla, krallığın hər yerini yerlə yeksan edərik. Yəni, vəziyyət bu cürdür və həmrəylik yalnız gözəl səslənən söz olaraq qalır".

Müsahibimiz bu yarışlarda Azərbaycanın qazandıqlarına da toxundu. Dedi ki, bir təşkilatçı kimi məqsəd ölkənin tanıdılması, islam aləmi başda olmaqla, adının dünyada bir daha duyurulması idi: "Digər tərəfdən, Azərbaycan bu tip idman yarışlarını yaxşı təşkil edə bildiyini bir daha göstərdi. O da məlum oldu ki, Azərbaycanı təmsil edən idmançılar, komandalar digər müsəlman ölkələrindən olan bir çox rəqiblərindən üstündür. Bu turnir mötəbər yarışlar ərəfəsində idmançılarımız üçün yaxşı məşq oldu".

**ATLAS Araşdırmalar Mərkəzinin Elxan Şahinoğlu** da hesab edir ki, Azərbaycan böyük idman yarışlarına ev sahibliyi etməklə müəyyən təcrübə qazanır. Onun sözlərinə görə, bu sıraya idman arenalarının istifadəsindən tutmuş nəqliyyat sferasının bu yarışlara necə hazır olmasına qədər sahələri aid etmək olar: "Bu cür yarışlar ölkə üçün bir testdir. İkincisi, idmançılarımız öz səviyyələrini yoxlamaq imkanı qazandılar. Doğrudur, İslam Oyunları olimpiada deyil, səviyyə xeyli aşağıdır. Buna baxmayaraq, idmançının istənilən yarışda medal qazanması onu növbəti qələbələrə həvəsləndirir. Azərbaycan idman sahəsində islam ölkələri arasında liderlərdən biridir. Bunu Braziliyanın Rio De Janeyro şəhərində keçirilən son yay olimpiadası da göstərdi. Azərbaycan bu yüksək statusunu qorumaq məcburiyyətindədir. Bunun üçün isə tək başqa ölkələrdəki yarışlarda iştirak kifayət etmir, gərək özün də bu yarışlara zaman-zaman ev sahibliyi edəsən ki, idman ölkəsi statusunu qoruyasan".

**Müsahibimiz dedi ki, idman yarışlarının bir digər məqsədi daha çox turisti Azərbaycana cəlb etməkdir. Onun sözlərinə görə, bu, bir ayın və ya bir ilin nəticəsində baş verməyəcək**: "Məsələn, bir olimpiadaya görə turistlərin Azərbaycana axın edəcəyini gözləmək yersizdir. Buna rəğmən, etiraf edək ki, Azərbaycana gələn turistlərin sayı ilbəil artır. 46 yaşın içindəyəm, həyatım boyu Bakıda bu qədər turist görməmişəm. Ərəb ölkələrindən Azərbaycana güclü axın var, bu hotellərin və restoranların dolması, yeni iş yerlərinin və gəlirlərin artması deməkdir. Bunda Bakıda keçirilən idman yarışlarının da təsiri var. Əlbəttə, Formula - 1, Avropa və İslam Oyunlarına xeyli maliyyə vəsaiti xərcləndi və bunu tənqid edənlər də var. Maliyyə vəsaitlərindən səmərəli istifadə edilməsi məndə də müəyyən suallar yaratdı. Ancaq bu cür turnirlər istər-istəməz maliyyə tələb edir. İndi isə əsas məqsəd bu turnirlərə xərclənən vəsaitləri turist və investisiya axınları vasitəsilə daha çox geri qaytarılmasını təmin etməkdir. Bunun üçün isə beyinlər işləməli, dövlət məmurlar çalışdıqları sahədə yeniliklər tətbiq etməlidirlər".

❑ **Sevinc TELMANQIZI**

# Ramazan ayında müğənnilər nə edəcək?

## Toya sifarişi almayan sənətçilər yaradıcılıq planlarından danışdılar; onların əksəriyyəti oruc tutmağa və ehsan süfrəsi açmağa hazırlaşır...



**Mübarək Ramazan ayına sayılı günlər qalıb. Adətən ölkəmizdə Ramazan və Məhərrəm aylarında toy şənlikləri keçirilmir - baxmayaraq ki, dini ekspertlər dəfələrlə qeyd edirlər ki, Ramazanda toy məclisləri keçirmək qəbahətli deyil.**

Beləliklə, Ramazan günlərində toy və digər şənlik məclisləri çox az sayda keçirildiyindən əsas gəlir mənbəyi toylar olan müğənnilər, şadlıq evləri, restoran sahibləri demək olar ki, işsiz, pulsuz qalır. Belə olduğu halda bəzi sənətçilər bu aylarda ya istirahətə gedir, ya da ki, yaradıcılıqla məşğul olub klip çəkdirir, studiyalarda çalışırlar. Maraqlıdır, müğənnilərin bu ilki Ramazan günləri ilə bağlı planları necə olacaq? Kimlər oruc tutacaq?

Musavat.com bununla bağlı bir neçə sənətçi arasında sorğu keçirib. Əməkdar artist Elza Seyidcahan Ramazan ayında heç bir toy və yaxud ad günü məclislərinə getmədiyini bildirdi: "Bu ayda mənim bir bəstəm olacaq. Ramazan ayına gəldikdə isə mən arzu edirəm ki, oruc tutum, oruc tutanlardan olum. Bu ayda mən özüm də iftar süfrəsi açıram, Ramazan məclislərinə dəvət olanda gedirəm, belə tədbirlərdən qalmıram. Toy məclislərinə gəldikdə isə inanmıram ki, Ramazan ayında kimsə toy etsin, böyük ad günü məclisi keçirsin. Doğrudur, əslində iftardan sonra belə məclislər məqbuldur. Mən hətta Türkiyədə şahidi olmuşam ki, iftardan sonra səhərə qədər məclislər keçirilir, amma bir şərtlə ki, heç bir şəhvəti musiqi olmasın, daha çox dini musiqilər səslənsin. Belə düşünürəm ki, Ramazan ayında baş tutan evlilik daha gözəl olar".

**Müğənni Günay İbrahimli də qeyd etdi ki, Ramazan ayında heç bir məclisə dəvətli deyil**: "Onu deyim ki, Ramazan ayında kim nə niyyətlə oruc tutacaqsa, niyyətləri qəbul olunsun. Həmin ay heç bir məclisim yoxdur. Bir neçə gün sonra klipimi təqdim edəcəm və bununla bağlı sayılıb-seçilən verilişlərdə qonaq olacam. Daha sonra bir neçə gün istirahət etməyi düşünürəm".

**Xalq artisti Mətanət İsgəndərli** isə qeyd etdi ki, hər il olduğu kimi bu il də oruc tutacaq: "Həmçinin iftar süfrəsi açacam. Yaradıcılığa gəldikdə isə, yeni mahnılar var, bununla bağlı studiyalarda çalışacam".

Hazırda Moskvada olan **müğənni Rəqsanə İsmayılova** isə qeyd etdi ki, Ramazan ayında Bakıda olacaq: "Mütləq bu Ramazan ayında oruc tutacam və iftar süfrəsi açacam. Həmçinin yeni təqdimatlar edəcəm".

**Müğənni İradə İbrahimova** da bildirdi ki, Ramazan ayında Bakıda olmağı düşünür: "Ola bilsin ki, həmin ərəfədə Bakıda olum. Sağlamlığımın imkan verdiyi qədər oruc tutmağa çalışacam. Lakin işlə bağlı dəqiq heç nə yoxdur".

**Müğənni Elariz Məmmədoğlu** bildirdi ki, Ramazan ayında heç bir məclisə dəvətli deyil: "Oruc tutacam. Ramazanda toy olmadığı üçün məclislərə dəvətli deyiləm. Amma əslində müqəddəs ayda toy etmək olar, sadəcə gərək süfrəyə içki verilməsin. İçki olmazsa, əlbəttə ki, toy etmək olar. O ki qaldı yaradıcılığa, mən hər zaman yaradıcılıqla məşğulam. Ona görə də gec saatlarınadək işləyib, səhərlər gec oyanıram. Çünki hər zaman yeni mahnılar üzərində işləyirəm. Yeni mahnılar olmayanda isə klassik estrada mahnılarına müraciət edirəm. Yəni vaxtilə Şövkət Ələkbərovanın, Oqtay Ağayevin, Yalçın Rzazadənin ifa etdiyi mahnıları ifa edirəm. Əvvəllər hit-mahnılar oxumağa çalışırdım. Lakin indi daha çox klassik estrada mahnılarına müraciət edirəm. Səviyyəli mahnılar isə çox nadir hallarda hit olur".

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 109 (6723) 23 may 2017

# “Avtoş” məmur oğlundan daha bìr xoşagəlməz əməl

**Xarici İşlər Nazirliyinin Turizm şöbəsinin rəisi Nurpaşa Abdullayevin oğlu, Azərbaycan Dillər Universitetinin tələbəsi Nicat Abdullayev bir müddət əvvəl avtoxuliqanlığa görə saxlanılması ilə gündəmə gəlmişdi. O, “Kia” markalı avtomobillə avtoxuliqanlıq etmiş və yalnız yol polisi əməkdaşlarının yaratdığı süni tıxac sayəsində zərərsizləşdirilmişdi. 2016-cı ilin mayında Nərimanov Rayon Məhkəməsinin qərarı ilə Nicat Abdullayev barəsində 20 gün müddətinə inzibati həbs cəzası təyin edilmişdi.**



Nicat Abdullayev yenə diqqət mərkəzindədir.

Musavat.com xəbər verir ki, O bu dəfə də ətrafdakılar üçün təhlükə yaratmağa başlayıb. Amma avtomobillə yox, içdiyi içkilərin şüşələri ilə. Nəsimi rayonu, İzzət Həmidov küçəsindəki 3 saylı binanın sakinləri məmur oğlundan şikayətçidirlər. Belə ki, binanın 6-cı mərtəbəsindəki 52 saylı mənzildə yaşayan Nicat Abdullayev eyvandan həyətə şüşə butulkalar, qablar atır. Nəticədə həm bina sakinləri, həm də onların avtomobilləri üçün ciddi təhlükə yaranır. Onun atdığı butulka və qablar dəfələrlə avtomobilləri zədələyib, oradan keçən insanlar möcüzə nəticəsində xəsarət almayıb.

**Qonşular bu barədə dəfələrlə Nicatın atası, XİN-in şöbə müdiri Nurpaşa Abdullayevə müraciət etsələr də, o, oğlunun qanunsuz əməllərinin qarşısını ala bilmir. Nurpaşa Abdullayevin özü başqa yerdə yaşayır, İzzət Həmidov küçəsindəki mənzili isə oğluna verib və Nicat orada tək qalır.**

Sonuncu dəfə iki gün əvvəl Nicat Abdullayevin atdığı butulkalar maşınların üstünə düşüb, əraziyə polis çağırılıb. Nicat Abdullayevə xəbərdarlıq edilməsinə baxmayaraq, polis əməkdaşlarının gedişindən cəmi bir neçə saat sonra yenə butulkalar atmağa başlayıb. Bina sakinləri çıxış yolunu avtomobillərini Nicatın yaşadığı mənzilin pəncərə və eyvanının altında saxlamamaqda, özləri isə oradan keçməməkdə görürlər.

Qeyd edək ki, N.Abdullayev eyni əmələ görə bir dəfə cəza alıb. Məmur-biznesmenin oğlu qonşularla davaya görə bir ay əvvəl də həbsdə olub. Məhkəmə qərarında qeyd olunur ki, valideynləri evin tək övladı olan Nicatı ərköyün böyüdüblər. O, evdə tez-tez dava salır, valideynlərindən külli miqdarda pul tələb edir, ala bilmədikdə isə özünə xəsarət yetirəcəyini deyib evdən qaçırmış. Harın gənc evdə valideynləri ilə mübahisə etdikdən sonra balkondan gül dibçəklərini qonşuların həyətdə park etdiyi maşınların üzərinə atıb ziyan vurur, söyüş söyüb onları narahat edirmiş. Nəsimi məhkəməsi onunla bağlı qərarı ötən il aprelin 8-də qəbul edib.

**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi keyfiyyətli müayinə və müalicə edə bilər.

- **Diaqnozu bilinməyən ağır hallar;**
- **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya**
- **Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;**
- **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
- **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
- **Sidikdə və ya spermada qan;**
- **Spermanın azalması və itməsi;**
- **Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;**
- **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;**
- **Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);**
- **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
- **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez**
- **50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;**
- **Sesksual inamsızlıq, gərginlik və qorxu nevrozları.Yuxu pozğunluqları**
- **Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.**

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.



## Şimşək çaxacaq, yağış yağacaq, külək güclənəcək

**Mayın 23-də Bakı və Abşeron yarımadasında havanın dəyişkən-buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə zəif duman olacaq.**

Cənub küləyi axşam şimal-qərb küləyi ilə əvəz olunacaq, arabir güclənəcək.

ETSN-dən APA-ya verilən məlumata görə, havanın temperaturunun gecə 14-17° isti, gündüz 22-27° isti, Bakıda gecə 14-16° isti, gündüz 23-25° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 757 mm civə sütunu, nisbi rütubət gecə 75-85 %, gündüz 60-70 % təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Lakin gündüz əsasən şimal və qərb rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə dolu düşəcəyi ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 12-17° isti, gündüz 25-30° isti, dağlarda gecə 5-10° isti, gündüz 12-17° isti olacağı gözlənilir.

**Mayın 23-ü axşam şimal və qərb rayonlarından başlayaraq 25-i gündüzədək ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Çaylarda sululuğun artacağı ehtimal olunur.**

## Təbrik



**Bu günlərdə Nazeykə ananın 70 illik yubileyi qeyd edilir. Bütün qohumlar adından onu təbrik edir, can sağlığı və uzun ömür arzulayırıq. Bu münasibətlə Nüşirəvan Baxışovun yazdığı şeiri də bu təbrikə əlavə edirik.**

**Yari yolda, qoydu əmim,**
**Əziyyətin çəkdi bibim.**
**İki usaq, həm qaynana,**
**Döndü həyatı zindana.**

**Cavanlığı, keçdi belə,**
**Həm içəri, həm də çölə.**
**Çətinliyi, görə-görə,**
**Gətirmədi heç vaxt dilə.**

**Həm ata oldu, həm ana,**
**O oğluna, həm qızına.**
**Dözüb onların nazına,**
**Əyilmədi ona-buna.**

**Bir arzusu var bibimin,**
**Evləndirsin nəvələrin.**
**Görub toyun Lamiyənin,**
**Qalıb Baxış, bir də Nərmin.**

**İndi bibim yetmiş yaşda,**
**Qoca deyil bax bu yaşda.**
**Nə yaxşı ki, o bu yaşda,**
**Dayanıbdı, hələ başda.**



## “O "Green Card" nə olan şeydir?” - Elariz Məmmədoğlu

**Müğənni Elariz Məmmədoğlunun “Green Card” qazanması ictimaiyyətdə böyük marağa səbəb olub. Kifayət qədər yaşayış imkanlarına sahib olan müğənninin öz ölkəsini hansı səbəbdən tərk etmək istəməsi suallar doğurub. Məsələ ilə bağlı müsavat.com-un əməkdaşı müğənni ilə əlaqə saxlayıb. Elariz Məmmədoğlu məsələdən bixəbər olduğunu, ümumiyyətlə “Green Card” haqda anlayışı olmadığını bildirdi: “O “Green Card” nə kartdır ki? Əgər mən o kartı alsam, indi Amerikanın hansı ölkəsində yaşaya bilərəm? Mən ümumiyyətlə Hindistanı xoşlayıram, orada yaşamaq istəyirəm. Gedib bir-iki məşhur şəhərini gəzmək istəyirəm.**

Kart almaq üçün müraciət etməmişəm və heç xəbərim yoxdur. Bu ad təkcə məndə deyil. Əgər əvvəllər təkcə məndə isə, indi çox adamın adı Elariz Məmmədoğludur".

**Müğənni başqa ölkəyə köçmək istəmədiyini də bildirdi:** “Başqa ölkəyə köçmək fikrim yoxdur. Amma rayonlarımızdan Qəbələdə yaşamaq istəyərəm, çünki ora çox səfalı yerdir”.

Qeyd edək ki, qafqazinfo.az saytı məlumat yayaraq bildirib ki, bu il Azərbaycanın 224 vətəndaşı “Green Card” sahibi olub. Onlar arasında keçmiş “Dəyirman” qrupunun solisti Elmir Məhərrəmov və müğənni Elariz Məmmədoğlu var. İki məşhurun adları Azərbaycandan “Green Card” udanların tam siyahısında yer alıb.

❑ Xalìdə GƏRAY

## Biləsuvarda atasını öldürən oğul tutuldu

**Biləsuvarda atasını öldürən oğul həbs edilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, mayın 18-də Biləsuvar rayonunun Zəhmətabad kənd sakini İradə Rəsulovanın mayın 14-də atası Təzəbəy Rəsulovun ölməsi, qohumları tərəfindən ona xəbər verilmədən dəfn edilməsi və bu səbəbdən onun öldürülməsindən şübhələndiyini bildirməsi barədə ərizəsi əsasında görülmüş tədbirlərlə T.Rəsulovun meyiti ekşqumasiya edilib.**

Araşdırmalar zamanı onun boğma yolu ilə qətlə yetirilməsi müəyyən edilib.

Həyata keçirilən istintaq və əməliyyat tədbirləri ilə hadisəni törətməkdə şübhəli bilinən oğlu Rahib tutulub.

Faktla əlaqədar cinayət işi başlanılıb.

## Elan

**Əsəd Seyfəddin Səməd oğluna verilmiş 368 saylı torpaq şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

***

**Məmmədov Afiq Vilayət oğluna Miqrasiyadan verilmiş müvəqqəti yaşayış vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

**İş adamı kimi tanınan Qəhrəmanov İsa Paşa oğlunun həyat yoldaşı Qəhrəmanova Şəlalə Cəfərqulu qızı "Yeni Müsavat"a müraciət edərək, ərinin barəsində şok faktlar açıqlayıb. 24 ildir biznesmenlə ailəli olan üç uşaq anası bu müddət ərzində ərinin ona ağır işgəncələr verdiyini, dəfələrlə onu intihar etmək həddinə çatdırdığını, öz övladlarının maddi ehtiyaclarını ödəməyəcəyi ilə bağlı ona hədə-qorxular gəldiyini bildirib.**



# İş adamına arvadından şok ittihamlar - "Məni otağa salıb..."

## Şəlalə Qəhrəmanova: "Evlənəndən bir həftə sonra uşağının olduğunu öyrəndim"

## Biznesmen: "Sizə nə dəxli var?"

Hazırda Xətai rayonu, Sabit Orucov küçəsi, məhəllə 1184, ev 23, mənzil 16-da yaşayan şikayətçi xanım dəfələrlə ərindən ayrılmaq istəsə də, birgə nikah dövrlərində əldə olunan, dəyəri 5 milyona yaxın mülkiyyətin bölünməməsi üçün İ.Qəhrəmanovun bundan imtina etdiyini bildirib. Sonradan mülkiyyətini bacısı və qardaşının adına keçirən ərinin indi ona boşanma davası açdığını söyləyib. Şikayətçi ailə həyatı qurduğu ilk vaxtlardan ərinin müxtəlif qadınlarla ona xəyanət etdiyini, hətta evləndikdən bir həftə sonra onun uşağının olması barədə xəbər tutduğunu, hazırda isə iş adamının Ukraynadan olan bir xanımla yaşadığını bildirib.

**Nikah dövründə qazandıqları mülkiyyətlərin ümumi siyahısını "Yeni Müsavat"a təqdim edən şikayətçi müdhiş iddialar səsləndirdi:** "İsa ilə 1993-cü ildə ailə həyatı qurduq, üç övladımız var. Bu illər ərzində ailəmizdə daim narazılıqlar olub. Dəfələrlə boşanma həddinə çatmışıq, aylarla Sabirabadda ata evimdə qalmışam. Sonra təzədən məni ərimin evinə gətiriblər. İsaya ilk dəfə boşanma davasını 2010-cu ildə açdım, amma sonradan ləğv olundu. Səbəb də onların barışığa gəlməsi və mənim ərizəmdən imtina etməyim oldu. 2012-ci ilin mayında təzədən məhkəməyə müraciət etdim. O zaman məhkəmə prosesləri oldu, amma qarşı tərəfdən prosesə gələn olmadı. O müddətdə qarşı tərəf mənə mülkiyyət davası açdı. Səbəb kimi də, guya illərlə yaşadığım mülk başqa şəxsin imiş, biz orada yaşamışıq. Təsəvvür edin ki, məhkəməyə müraciət edən şəxsin biri İsanın qardaşı Qəhrəmanov Ehtiram idi. Digər şəxslər də Saleh və Elxan adamlar idilər. Ehtiram biznesmen olsa da, digər iki şəxs faktiki kasıb idilər, köhnə evlərdə yaşayırdılar. Necə olur ki, bir milyonluq villada mən yaşayıram, amma belə mülkü olan Saleh və Elxan ikiotaqlı evlərdə yaşayırlar? Sonunda udan tərəf təbii ki mən oldum. Ondan sonra da yenə atama müraciət etdilər, barışıq üçün. Yenə də atamın sözündən çıxa bilmədim, müvəqqəti olaraq, ərizəni dayandırdım. Bu hadisələrdən keçirdiyim əsəb sarsıntısına görə dəfələrlə müalicə almışam. Bundan istifadə edib, neçə dəfə İsanın əli ilə adıma dəlilik kağızı almaq istədilər. Heç bir mülkiyyətin üstündə hüququmun olmaması üçün belə edirdilər. Bir dəfə məni otağa salıb, bayıra çıxmağa qoymurdular. Onda bildim ki, həkim çağırıb adıma dəlilik kağızı almaq istəyirlər. Bacıma xəbər verdim, o da atamla danışdı. Atamın gəlişindən sonra məni rayona apardılar. Yenə əvvəlki kimi, bir müddətdən sonra gəlib, çoxlu xahişdən sonra atamın razılığını alıb, Bakıya gətirdilər. 2012-ci ildən sonra isə İsa ilə ailə bağlarımız tamam qopdu. Formal olaraq, uşaqlarla birlikdə bir evdə yaşamışıq. O da uşaqların xatirinə. Bizim ailədə əsas narazılıqları ərimin bacısı və onun həyat yoldaşı Babaşov İsa yaradırdı. Açıq şəkildə ailə işlərimizə müdaxilə edirdilər. Həmişə deyirdim ki, bu ailə işləridir, sizlik nə var ki. Amma sanki İsadan tapşırıq alırdılar, bir kiçik narazılıq olan kimi də, dərhal evə gəlir, müdaxilələr edirdilər. Dəfələrlə ikimiz psixoloq yanına getmişik, bir dəfə DİN-in nəzdində olan xəstəxananın psixoloqu İsaya dedi ki, bu ailəni məhv edən sənsən. Səbəbsiz yerə dava salırsan. O, məni



daim döyürdü. Uşaqlarla da normal davranmırdı. Mən onunla evlənəndən bir həftə sonra uşağının olduğunu öyrəndim. Oğlum anadan oldu, ondan bir ay sonra başqa bir qadından övladı dünyaya gəldi. Faktiki bu gün mənim evimdə 3 aydır Ukrayna vətəndaşı olan, 30-35 yaşlı bir qadınla yaşayır. İsa ildə iki-üç dəfə bir aylıq Ukraynaya gedir".



**Şikayətçi qadın hazırda ərinin biznes fəaliyyətini davam etdirdiyini bildirdi:** "Mən onunla evlənəndə heç nəyi yox idi. Sonradan biznes fəaliyyətinə başladı və işini böyütdü. "Azerservis-1" adlı şirkət yaratdı. Ora kiçik müəssisə adı da verildi. 1995-ci ilin əvvəllərində Keşlədə həyət evi aldıq. 2000-ci ilə qədər orada yaşadıq. Həmin il Mərdəkandan bağ evi aldıq, onu da bacısı Babaşova Afətin adına aldı. Bir il orada yaşadıqdan sonra Keşlədə ev tikdirib yenidən ora qayıtdıq, həmin evi də qardaşının adına aldı, qardaşı da sonradan iddia qaldırıb evin ona məxsus olduğunu bildirdi. Sonda da evi ala bildi. 2005-ci ildə indi yaşadığım binadan ev alıb, ora köçdük. Yəni bunu sadalamaqda məqsədim odur ki, demək olar hər il ya bir ev, ya da obyekt alırdıq. İndi deyir ki, bunların heç biri mənim deyil, amma şahidliyimlə olub, qardaşının adına keçirsə də, ilk vaxtlar öz adına idi. Bu mülklərin heç birində gözüm yoxdur. Amma övladlarımız var, onların gələcəyini belə məhv etmək olmaz. Düşünün ki, övladlarımın adına bu dəqiqə heç nə yoxdur. Bütün mülklər qardaşlarının və bacısının adınadır. Yəni illərlə çəkdiyimiz əziyyət boşuna gedir. İsagilin nəslində bir adət-ənənə var. Əgər gəlin boşanırsa, ona heç nə vermirlər. Uşağı belə qadının üstünə atırlar. Deyirlər, əgər uşaq böyüyəndə atanı istəsə, mütləq onu nə zamansa tapacaq. Təsəvvür edin ki, qızım Amerikada oxuyur, 10 gündür yanıma gəlib, uşağın sənədlərini atasından istədim, vermədi, məcbur qalıb itmiş adı ilə yeni sənədlər düzəltdirdim. Uşağın geyim əşyalarını belə vermədi. Azacıq hörmət etmirlər ki, qadın azından uşaqlarının anasıdır. İsanın bir qardaşı arvadından boşansa da, aliment verirdi. Nəsil təzyiq edirdi ki, niyə ödəyirsən. Yəni bu qədər



problemli ailədir. Ailəli olmasaq da, bir evdə yaşayırdıq və yenə də məni tez-tez döyürdü. Bu ilin fevralında məni bərk döydü, hətta üstümə Təcili Tibbi Yardım briqadası gəldi, qabırğam sınmışdı. Həmin vaxt intihar edirdim, evdəkilər mane oldu. İsa məni tez-tez övladlarımla sınağa çəkirdi. Deyirdi ki, şikayət etsən, Amerikadakı qızımızı oxutmayacam, yəni pul verməyəcəm. Qızıma da demişdi ki, anan mənimlə boşansa, səni oxutmayacam. Çünki həmin vaxt mülklərə mən də iddiamı qoya bilirdim. Qızımın arzusu isə xaricdə oxumaq idi, övladımın xatirinə susurdum. Hər dəfə uşaqlarımı qarşıma qoydu. Oğlum da hüquq fakültəsində oxuyur, mənə deyirlər ki, şikayət edib, atasına cinayət işi açdırsan, oğlunun gələcəyini məhv edəcəksən. Həmin vaxt intihar etmək cəhdimlə bağlı İsaya cinayət işi açılırdı. Bax o zaman övladlarım vasitəsilə mənə mane ola bildilər. Bir də həmin vaxt hazırda bacımla yaşadığım evi mənə verdilər. Bax, bu səbəblərdən ərizəmi geri götürdüm. Ərizəmi sonuncu dəfə polisdən götürməmişdən əvvəl Ehtiram məni notariat kontoruna apardı. Qarşıma 14 sənəd qoydular, imzalamamı istədilər. Kimsə mənə orada hüquqlarımı başa salmadı ki, bunu imzalasan, bütün hüquqlarından məhrum olursan. Halbuki, bunlar onların hüququ idi, yəni notarius işçilərinin. Sonradan sənədləri onlardan alanda mənə deyir-



lər ki, niyə belə etdin. O zaman aldadıldığımı bildim. Sən demə, sənədlər mülklərdən ibarət imiş və orada yazılıb ki, bu mülklərin satılması və bağışlanmasına etirazım yoxdur. İndiyə qədər heç bir orqanda olmamışam, evdar qadın olmuşam, hüquqlarımı da bilmirəm. Hüquqlarım başa salınsaydı, heç zaman etməzdim. Ən azından övladlarımın adına mülkləri keçirərdim. Amma bacısının və qardaşının adına mülkləri keçirmək üçün bu hiyləni işlətdi. İndi də hansı orqana müraciət edirəmsə, məndən sonra İsa həmin yerlərə gedib deyir ki, mənim heç nəyim yoxdur, qardaşımın yanında işləyirəm. Birgə nikah dövrümüzdə əldə etdiyimiz 13 mülkün heç biri o qardaşlara və bacıya aid ola bilməz. Bunun hamısı mən imza atandan sonra onların adına keçirilib. Niyə mən bundan öncə dəfələrlə boşanmaq istəyəndə İsa imtina edirdi, indi isə özü Xətai Rayon Məhkəməsinə müraciət edir? Çünki mülklərə artıq iddiam yoxdur. Boşanmanı isə sürətlə bitirmək istəyir. Bu ayın 5-nə məhkəmə təyin olunur, amma sonra məhkəmədən zəng edib deyirlər ki, proses iki gün əvvələ salınıb. Onsuz mən də ayrılmaq istəyirəm, sadəcə İsaya dedim ki, uşaqların sənədlərini və başqa əşyalarını mənə verməsən, növbəti prosesdə, yəni mayın 17-də boşanmayacam. O da dediklərimi etmədi, mən də boşanmadım, prosesin 3 ay uzanmasını istədim. Mülklərlə bağlı, dəyən mənəvi zərər, qol çəkdirdikləri sənədin ləğvi ilə bağlı Nizami Rayon Məhkəməsinə mayın 18-də müraciət etmişəm. Mənə hədə-qorxu gəlirlər ki, hara getsən, pulla da olsa, işi bağlayacağıq. Ona görə qəzetiniz vasitəsilə aidiyyatı orqanlardan kömək istəyirəm. Tək istəyim odur ki, işə ədalətli baxsınlar, araşdırma da aparsalar, əsl həqiqəti görəcəklər".

**Barəsindəki ittihamlarla bağlı İ.Qəhrəmanova zəng etdik. İş adamı bəzi sərt ifadələr işlədərək telefonu üzümüzə qapatdı:** "Nə etmək istəyirsiniz? Siz istintaq idarəsisiniz, ya məhkəmə?! Bunun sizə nə dəxli var?"

❑ **Cavanşir ABBASLI**

# YENİ MÜSAVAT

## Son səhifə

N 109 (6723) 23 may 2017




## Siqaret çəkən qadın hər 5 ildə ölümə 8 faiz yaxınlaşır

**Kanadanın Albert Universitetinin mütəxəssisləri hesab edirlər ki, hətta nadir halda belə siqaret çəkən qadınlar daha erkən ölür. Onların hesablamalarına əsasən, qadının siqaret çəkməyə davam etdiyi hər 5 ildə ölüm təhlükəsi 8 faiz artmış olur. Alimlər ABŞ-da 1976-cı ildən aparılan 30-55 yaş arası yüz min qadının iştirak etdiyi böyük milli tədqiqatın nəticələrini təhlil ediblər. Müəyyən edilib ki, hətta gün ərzində 1-14 arası nadirən siqaret çəkən qadınlarda ani ürək dayanması ilə əlaqədar erkən ölüm riski kifayət qədər artıqdır.**

Yanan siqaretin ucundakı istilik 900 selsi dərəcə, ağızdakı istilik isə 30 dərəcəyə bərabərdir. Bu istiliklər səbəbiylə tütün yarpağında olan maddələr dəyişimə uğrayır və yeni kimyəvi maddə yaranır. Bir nəfəs siqaret tüstüsündə 300 milyon dənəcik olduğu müəyyən edilib.

Gündə bir qutu siqaret çəkən insanın minlərlə dəfə içə çəkmə hərəkəti etdiyini nəzərə alsaq, orqanizmə daxil olan zərərli kimyəvi maddələrin miqdarını asanlıqla anlamaq olar. Siqaret tüstüsündə olan əsas maddələr kokain və morfi qədər asılılıq yarada bilir. Nikotin qanda oksigen daşınmasına mane olan və ölümə yol açan maddədir.

# Kök meymunu zorla arıqladırlar

**Taylandın paytaxtı Banqkokda turistlərin atdığı yeməklər ucbatından kökələn vəhşi meymunu yaxalayaraq dietaya başladıblar. Bu haqda lenta.ru saytı "Khao Sod" nəşrinə istinadən yazıb. Taylandın Milli Parkları və təbiəti mühafizə nazirliyi elan edib ki, heyvan arıqlayana qədər onu tərəvəz, meyvə və aşağı dərəcədə şəkər, yağ tərkibli qidalarla yemləyəcəklər. Sutka ərzində meymun 400 qramdan artıq yem qəbul etməyəcək. Bundan başqa, onu aktiv şəkildə hərəkətə məcbur edəcəklər. Hazırda meymun 26 kilo ağırlığındadır. Bu, onun normadan 3 dəfə ağır olduğunun sübutudur. Rəsmi dövlət qurumları meymunun fotoları sosial şəbəkədə yayılandan sonra onunla xüsusi maraqlanmağa başlayıblar. Nəhəng qarnına görə meymun hərəkət etməkdə çətinlik çəkirdi. Yerli sakinlər onu ""gombul dayı" adlandırıblar.**



Veterinar Supakam Kaevçot isə deyib ki, digər meymunlar ona çoxlu yemək gətirsə də, o, bu yeməkləri cavan meymunlar arasında bölürdü. Onun sözlərinə görə, patoloji piylənməyə görə onda ürək xəstəliyi və diabet baş qaldıra bilər.

# İki qadın bir pişiyə görə məhkəməyə düşdü

**İtaliyanın Liquriya vilayətində bir pişik məhkəmə predmeti olub. Lenta.ru saytının xəbərinə görə, 4 yaşlı ev heyvanı bir evdə yaşayır, amma həmin evə qonşu olan evdə gecələyirmiş. Bu səbəbdən də hər iki evin sahibəsi olan qadınlar ona fərqli adlar qoyublar - Bantik və Tekila. Onlardan biri polisə müraciət edərək evindən oğurluq baş verdiyini deyib. Qadının sözlərinə görə, qonşusu pişiyini də götürərək köçüb. Prokurorun qərarına görə, ev heyvanı yeni sahibəsindən alınaraq köhnə sahibəsinə geri qaytarılıb. İkinci qadın isə qərardan apelyasiya şikayəti verib.**

Yerli qəzetlər isə yazıblar ki, ümumiyyətlə, pişiyin oğurlanması barədə ortada hər hansı sübut yoxdur. Heç onun birinci qadına məxsus olması haqda da sübut ortada yoxdur. Buna görə də onu özü ilə aparan qadına geri qaytarıblar.

Son nəticədə isə qadınlar yenə də pişiyin kimə məxsus olması barədə razılığa gələ bilməyiblər. Ona görə də ev heyvanının oğurlanması barədə iş vətəndaş işləri ilə bağlı məhkəməyə göndərilə bilər.





## Filin altında qalıb can verdi

**Cənubi afrikalı ovçu Teunis Bota üstünə ölmüş fil düşdüyü üçün dünyasını dəyişib. Bu barədə "The Daily Telegraph" qəzeti yazır. İnsident 19 mayda baş verib. Belə ki, Bota ilə birgə milli park Xvanqada gəzən ovçuların üstünə qəfil şəkildə üç fil hücum edib. Bota onlara hücum edən fillərdən birinə silahla atəş açıb. Amma o, həmin məqamda arxadan gələn fili fərq etməyib. Arxadan gələn fil onu xortumu ilə göyə qaldırandan sonra yerə vurmaq istəsə də, bu dəfə də digər ovçular cəld tərpəniblər. Onlardan biri həmin filə atəş açaraq öldürüb. Son nəticədə fil yerə yıxılıb və Bota da onun altında qalaraq can verib. Bota mahir ovçu kimi tanınsa da, onun bəzən yersiz cəsarət şouları öz axırına çıxıb.**




**QOÇ** - Bu gün xırdaca mübahisəyə də getməməlisiniz. Əks halda, bəzi yaxınlarınızla aranızda soyuqluq yaranacaq. Situasiyaları kontrolda saxlasanız, axşam xoş ovqat qazanacaqsınız.

**BUĞA** - İşgüzarlığınız artıdığından qarşınıza qoyduğunuz məqsədlərin əksəriyyətini reallaşdıra bilərsiniz. Bəxtinizin gətirəcəyinə ümid edin. Nahardan sonra ovqatınız xeyli yüksələcək.

**ƏKİZLƏR** - "Hakim" olduğunuz bu dövrün maliyyə uğurunu görməyə başlayacaqsınız. Saat 13-16 arası bu istiqamətdə daha əlverişli şanslar qazana bilərsiniz. Qərarlarınızda qəti olun.

**XƏRÇƏNG** - Cərəyan edən bütün proseslərə reallığın gözü ilə baxın. Çünki indiki dünya fantaziyaları qəbul eləmir. Səfərə çıxmaq üçün olduqca münasib gün olsa da, büdcənizə görə hərəkət edin.

**ŞİR** - İş mane olmasa, səyahət və doğmalarla görüşmək üçün əlverişli vaxtdır. Maddi durumunuzda da nəzərəçarpacaq irəliləyişlər mümkündür. Bütün hallarda tənhalığa aludə olmayın.

**QIZ** - Təxminən saat 11-dən 15-ə qədər bəzi xoşagəlməzliklərlə rastlaşa bilərsiniz. Bu səbəbdən də həmkarlarınızla, rəhbərinizlə nəzakətli davranın. Yersiz mübahisələr zərərinizədir.

**TƏRƏZİ** - Ulduzların düzümünə görə, bu təqvimdə hər şeydən əvvəl səhhətinizi qorumalı, şər işlərdən uzaq olmalısınız. Çalışın ki, hisslərinizi cilovlayasınız. Axşam sürprizlə rastlaşacaqsınız.

**ƏQRƏB** - Zamanın nəbzini tutmaqda hələ də çətinlik çəkirsiniz. Tərslikdən lazımi adamların köməyindən də bəhrələnmirsiniz. Bəlkə papağı qarşınıza qoyub yaxşı-yaxşı düşünəsiniz?!

**OXATAN** - Peşəyönümlü fəaliyyətinizdə uğurlu nüanslarla qarşılaşacaqsınız. Perspektivli görüşləriniz də istisna olunmur. Əzmkarlığınızı artırsanız, qazanc da əldə edəcəksiniz.

**OĞLAQ** - O qədər də uğurlu gün deyil. Yalnız nahara qədər xırda nailiyyətləriniz ola bilər. Uzaq yola çıxmaq, riskli işlərə girişmək məsləhət deyil. Qida rasionunuzu zənginləşdirin.

**SUTÖKƏN** - Maddi durumunuzda irəliləyişlər gözlənilir. Lakin hansısa vacib məsələdə yanlış qərar çıxarmaq ehtimalınız da var. Odur ki, proqnozumuzu oxuyan kimi tədbir görməyə hazırlaşın.

**BALIQLAR** - Sövdələşmə aparmaq üçün şanslı vaxtdır. Amma gərək danışıqlar ikitərəfli istiqamətdə baş versin. Məxfi təkliflərə başdansovdu yanaşmayın. Ciddi işləri bu günə salmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Sürücülərə qəribə cəza




**Amerikada maşınını qadağan olunmuş ərazidə park edən sürücülərə qəribə cəza üsulu tətbiq olunacaq. Qadağaya məhəl qoymayan sürücülərin maşınlarının ön şüşəsinə iri, sarı lövhə vurulacaq. Bu lövhə şüşənin bütün hissəsini tutacaq və üzərində siqnalizasiya olacaq. Sürücü lövhəni qoparmaq istədiyi anda siqnalizasiya işə düşəcək.**

Qeyd edək ki, lövhəni götürüb yoluna davam etmək istəyənlər telefon vasitəsi ilə cəriməni ödəməli, sonra telefonuna gələn kodla lövhəni açmalıdır.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.



e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)



Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100